# Təlimat 5202

# GUID 5202

## Dayanıqlı İnkişaf: Ali Audit Qurumlarının Rolu

INTOSAI

INTOSAI Təlimatları INTOSAI Peşəkar Bəyanatlar Çərçivəsinin (IFPP) bir hissəsi kimi Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı INTOSAI tərəfindən hazırlanır.

Daha ətraflı məlumat üçün sayta daxil ola bilərsiniz: www.issai.org

Bu sənəd 2016-cı ildə INTOSAI Peşəkar Bəyanatlar Çərçivəsinin təsis edilməsindən əvvəl hazırlanmışdır. Bu səbəbdən, rəsmi məqsəd baxımından INTOSAI-ın sonuncu təlimatlarından fərqlənə bilər.

INTOSAI, 2019

1) 2004 -cü ildə Dayanıqlı inkişaf: Ali Audit Qurumlarının rolu adlı INTOSAI sənədi olaraq təsdiq edilmişdir.
2) 2010-cu ildə INTOSAI çərçivəsində ISSAI 5130 ilə birləşdirilmişdir.
3) INTOSAI Peşəkar Bəyanatlar Çərçivəsinin təsis edilməsi ilə əlavə dəyişikliklər ilə 2019-cu ildə Təlimat 5202 yenidən adlandırılmışdır.

## ÖNSÖZ

Dayanıqlı inkişaf son iyirmi il ərzində qəbul edilən və başa düşülən, hal-hazırda dövlət planlaşdırması və siyasətinin qəbul edilməsində əhəmiyyət kəsb edən bir konsepsiyadır. Dayanıqlı inkişaf gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətindən kompromisə getmədən indiki nəslin ehtiyaclarını ödəyən bir inkişaf konsepsiyasını irəli sürərək insan fəaliyyətinin üç sahəsini - cəmiyyət, iqtisadiyyat və ətraf mühiti uzlaşdırır.

1992-ci ildə 105 ölkə Rio-nun Ətraf Mühit və İnkişaf Bəyannaməsini təsdiqlədi və dayanıqlı inkişaf prinsiplərini öz fəaliyyətlərinə inteqrasiya etməyi öz üzərinə götürdü. Bu prinsiplər 2002-ci ildə Cənubi Afrikanın Yohannesburq şəhərində keçirilən Dayanıqlı İnkişaf üzrə Dünya Zirvəsində yeni bir təkan verdi. Ali Audit Qurumları milli strategiya və proqramlara nəzarət vasitəsilə dayanıqlı inkişafa nail olmaq üçün cəhdlərə dair məlumatların verilməsi və dəstəklənməsində mühüm rol oynayır.

Dayanıqlı İnkişaf: Ali Audit Qurumlarının Rolu dayanıqlı inkişaf konsepsiyasına ümumi baxışı təqdim edir və davamlı inkişafın audit işlərinə necə inteqrasiya olunacağına dair praktiki rəhbərliyi özündə birləşdirir. Sənəd bütün INTOSAI dillərində mövcuddur və WGEA Veb saytında (www.environmentalauditing.org) tapıla bilər.

Birləşmiş Krallıq Milli Audit Bürosu (NAO) və Kanada Baş Auditor Ofisi (OAG) tərəfindən hazırlanan sənəd işçi qrupu tərəfindən ilk dəfə Cənubi Seulda keçirilən XVII Beynəlxalq Ali Audit Qurumları Konqresində (INCOSAI) təqdim edilmişdir. Kağızın yenidən işlənmiş forması 2002 -ci ildə İngiltərənin London, WGEA Rəhbər Komitəsinin iclasında təqdim edilmişdir. Rəhbər Komitə layihəni qəbul etdi və sənədin WGEA tərəfindən təsdiqlənməsini və rəsmi INTOSAI sənədi olaraq qəbul edilməsini təklif etdi.

2003-cü ilin iyununda WGEA Assambleyası Polşanın Varşava şəhərində keçirilən səkkizinci toplantısında yekdilliklə sənədin rəsmi INTOSAI sənədi kimi təklif edilməsini tövsiyə etdi. 2003 -cü ilin oktyabr ayında bu təklif barədə INTOSAI İdarə Heyətinə məlumat verildi. İdarə Heyəti 2004-cü ilin oktyabrında Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək XVIII INCOSAI-də layihənin INTOSAI tərəfindən rəsmi olaraq qəbul edilməzdən əvvəl şərh edilməsi və nəzərdən keçirilməsi üçün sənədin INTOSAI üzvləri arasında paylanmasını təsdiqlədi.

Bu məqalənin müəllifləri NAO -dan olan Joe Cavanagh, Peter Gray, Chris Shapcott və Sarah Billiald-ə, OAG -dan olan Wayne Cluskey-ə fədakar işlərinə görə təşəkkür edirik. Nəhayət WGEA üzvlərinə və digər AAQ-lara də bu məqaləyə verdiyi töhfələrə görə təşəkkür edirik.

Davamlı inkişaf AAQ-lar qarşısında yeni vəzifələr qoyur. Ümid edirik ki, “Dayanıqlı İnkişaf: Ali Audit Qurumlarının Rolu” hökumətlərin dayanıqlı inkişafı öz fəaliyyətlərinin ayrılmaz bir hissəsi halına gətirdiklərini yoxlamaq üçün lazım olan əsas anlayışı və baxışı təmin edəcək.

Hörmətlə,

FCA, INTOSAI WGEA-nın sədri,
Kanadanın Baş Auditoru
Sheila Fraser

INTOSAI WGEA-nın sədr müavini,
Kanada Baş Auditor Ofisinin Ətraf Mühit və Dayanıqlı İnkişaf üzrə Komissioneri
Johanne Glinas

# MÜNDƏRİCAT


**GİRİŞ – SƏNƏDIN MƏQSƏDLƏRI VƏ STRUKTURU** ........ 5
**1. DAYANIQLI İNKİŞAF ANLAYIŞININ MƏNŞƏYİ** ........ 6
DAYANIQLI İNKİŞAF VƏ HÖKUMƏTLƏR ........ 9
DAYANIQLI INKIŞAFIN AAQ-LARA TƏSIRI ........ 11
**2. DAYANIQLI İNKİŞAF MILLI VƏ REGIONAL SƏVIYYƏDƏ** ........ 13
DAYANIQLI İNKİŞAF STRATEGİYALARI ........ 13
DAYANIQLI İNKİŞAF HƏDƏF VƏ GÖSTƏRİCİLƏRİ ........ 18
EKOLOJİ TƏSƏRRÜFAT VƏ ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİ SİSTEMLƏRİ ........ 23
ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİ SİSTEMLƏRİNİN AUDİTİNİN ƏHATƏ DAİRƏSİ 25
DAYANIQLI İNKİŞAF ÜZRƏ HESABATLILIQ (CAVABDEHLİK) VƏ HESABATIN VERİLMƏSİ ........ 25
**3. DAYANIQLI İNKİŞAF PROQRAM SƏVİYYƏSİNDƏ** ........ 28
PROQRAMLAR VƏ DAYANIQLI İNKİŞAF ........ 28
PROQRAM SƏVİYYƏSİNDƏ AUDİT ÜÇÜN İMKANLAR ........ 31
AUDİT ÜÇÜN MÖVZULARIN SEÇİLMƏSİ ........ 31
DAYANIQLI İNKİŞAF AUDİTLƏRİNİN ƏHATƏ DAİRƏSİ VƏ TƏRTİB EDİLMƏSİ ........ 34
METODOLOJİ ÇƏTİNLİKLƏR ........ 37
NƏTİCƏ ........ 41
**4. AAQ-IN POTENSİALININ ARTIRILMASI** ........ 42
1-Cİ ADDIM: MANDATIN MÜƏYYƏN EDİLMƏSİ ........ 43
2-Cİ ADDIM: STRATEGİYANIN HAZIRLANMASI ........ 44
3-CÜ ADDIM: AAQ NƏZDİNDƏ POTENSİALIN VƏ BACARIQLARIN YARADILMASI ........ 45
4-CÜ ADDIM: AUDİTLƏRİN KEÇİRİLMƏSİ ........ 47
5-Cİ ADDIM: AAQ-IN ÖZ VƏ DİGƏRLƏRİNİN TƏCRÜBƏSİNDƏN ÖYRƏNMƏSİ ........ 49
6-CI ADDIM: TƏSİR ETMƏK ........ 50
NƏTİCƏ ........ 50
**ƏLAVƏ A: BAŞ AUDİTORUN AKTINDAN ÇIXARIŞ (KANADA)** ........ 51
**DAYANIQLI İNKİŞAF** ........ 51
**TERMİNLƏR LÜĞƏTİ** ........ 53

# GİRİŞ – SƏNƏDIN MƏQSƏDLƏRI VƏ STRUKTURU

Dayanıqlı inkişaf termini bəzi auditorlar və Ali Audit Qurumlarına (AAQ) məlum olsa da, bəziləri üçün isə tanış olmayan anlayışdır. Bu sənəd dayanıqlı inkişaf konsepsiyasını izah etmək üçün hazırlanıb. Sənəd həmçinin dayanıqlı inkişaf üzrə milli irəliləyişin auditində AAQ-ların rolunu qiymətləndirir. Sənəd 4 hissədən ibarətdir:

1-ci hissə ümumi məlumatdan ibarətdir. Bu hissə dayanıqlı inkişafı sosial, iqtisadi və ətraf mühitə dair məqsədləri (3 məqsəd) birləşdirən dəyər kimi təsvir edir. Burada 2-4-cü hissələrə giriş kimi dayanıqlı inkişaf anlayışının hökumətlərin, həmçinin şəxsi idarələrin strategiyaları, qaydaları və fəaliyyətlərində necə əks etdirilməsinə və bunun AAQ-lara necə təsir etməsinə dair məlumat verilir.

2-ci hissədə hökumətlərin dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün hazırladıqları çərçivələr və milli strategiyalardan bəhs edilir və bunların AAQ-lar üçün yaratdığı imkanlar nəzərdən keçirilir.

3-cü hissə dayanıqlı inkişaf anlayışının fərdi siyasət (qaydalar) və ya proqramlara tətbiq edilməsindən və bunun icrasının auditində AAQ-ların rolundan bəhs edir. Bu hissə iqtisadi, ekoloji və sosial məsələlər arasındakı əlaqələrə baxmaq perspektivlərini nəzərdən keçirməklə başa çatır.

4-cü hissə AAQ-ların dayanıqlı inkişaf sahəsində auditlərin keçirilməsi bacarıqlarını inkişaf etdirmək üçün atmalı olduqları addımları nəzərdən keçirir.

Rio Bəyannaməsini qəbul etməklə 105 ölkə dayanıqlı inkişafı öz fəaliyyətlərinin ayrılmaz hissəsi etmək öhdəliyi götürüb. AAQ-lar milli strategiyaların həyata keçirilməsi və edilmiş inkişafın monitorinqində əsas rol oynaya bilər.

Bu sənəd bir sıra AAQ-ların praktiki təcrübələrini əhatə etməklə təlimat kimi nəzərdən keçirilə bilər. Bu təlimatın çətinliklərin öhdəsindən gəlməkdə AAQ-lara kömək olacağına ümid edirik.

# 1-Cİ HİSSƏ

## 1. ÜMUMİ MƏLUMAT

## 1. DAYANIQLI İNKİŞAF ANLAYIŞININ MƏNŞƏYİ

**Dayanıqlı inkişaf gələcək nəsillərin öz tələblərini qarşılamasına mane olmağa şərait yaratmadan bu günün ehtiyaclarının qarşılamasının təkmilləşdirilməsidir.**

1.1 Baxmayaraq ki, dayanıqlı inkişafa dair vahid bir tərif yoxdur, bu anlayış Ətraf Mühit və İnkişaf üzrə dünya Komissiyasının 1987-ci ildə dərc edilmiş "Ümumi gələcəyimiz" (daha çox Brutlənd hesabatı kimi tanınır) adlı hesabatı ilə məşhurlaşmışdır. Komissiya dayanıqlı inkişafı "Dayanıqlı inkişaf gələcək nəsillərin öz tələblərini qarşılamasına mane olmağa şərait yaratmadan bu günün ehtiyaclarının qarşılamasının təkmilləşdirilməsidir.""kimi təsvir etmişdi.

**Bu anlayış sosial, ətraf mühit və iqtisadi məqsədləri əhatə edir.**

1.2 Dayanıqlı inkişaf sosial, ətraf mühit və iqtisadi məqsədləri əhatə edir. Əlbəttə ki, ideal olaraq istənilən siyasət və ya insan fəaliyyəti hər üç sahə üzrə inkişafla nəticələnməlidir. Bununla belə, bir sahədə inkişafanail olmaq digərinə vurulmuş zərər hesabına əldə edilə bilər. Mümkün olan hallarda qərarlar hər üç sahədə zərər və faydaları nəzərə almalıdır. Komissiya dayanıqlı inkişaf anlayışının tərifini verərkən bugünki və gələcək nəsillərə qarşı ədalətlə yanaşmışdır.Belə ki, indiki nəsil iqtisadi tərəqqiyə gələcək nəsilləri rifahından mənn etməhesabına nail olmamalıdır.

**Bu qlobal anlayışdır**

1.3 Strategiyalar adətən milli səviyyəni əhatə etsə də, bu problemlər qlobal həll yolları tələb edən qlobal məsələlər kimi tanınır. Ətraf mühitlə bağlı məsələlər coğrafi sərhəd tanımır. Yoxsulluq və sosial ədalətsizlik kimi məsələlər baş verdiyi coğrafi ərazidən asılı olmayaraq qlobal problemlərdir. Zaman keçdikcə milli iqtisadiyyatlar bir-biri ilə daha çox qarşılıqlı əlaqəli olur. Qlobal məhsulun dörddə biri ölkələr arasında dövr edir (mübadilə edilir): ticari axınlar son 50 il ərzində 17 dəfə artmışdır.

1.4 Sosial, iqtisadi və ətraf mühit üzrə məsələlər arasındakı əlaqələrə artan beynəlxalq diqqət BMT-nin 1992-ci ildə Rio-de-Janeyro şəhərində keçirilmiş Ətraf Mühit və İnkişaf üzrə Konfransında ("Yer kürəsi" zirvə görüşü) daha çöx önə çıxmışdır. Bu konfrans qlobal problemlərin həllində beynəlxalq cəhdlərin göstərilməsində mühüm mərhələ idi: Rio Bəyannaməsi 105 ölkə tərəfindən təsdiq edilmişdir. Həmin

ölkələrin hökumətləri XXI əsr Gündəliyi üzrə fəaliyyət planı da qəbul etmişdir. 168 ölkə öz genetik resurslarını müəyyən etməyə və qorumağa, qoruq ərazilərinin yaradılması da daxil edilməklə onların mühafizə olunmasına dair planların hazırlamasını tələb edən Bioloji Müxtəliflik haqqında Konvensiyanı imzalamışdır. 1997-ci ildə BMT-nin İqlim Dəyişikliyi Çərçivəsi üzrə Konvensiyasına üzv olan 166 ölkə bir sıra istixana qazlarının buraxılmasını azaltmaq və ya məhdudlaşdırmaq öhdəliyi yaradan Kyoto protokolunu imzalamışdır.

1.5 Ölkələr Rio Bəyannaməsindən sonra əldə edilmiş nailiyyətləri nəzərdən keçirmək və gələcəyə dairfəaliyyət planı hazırlamaq üçün 2002-ci ildə Cənubi Afrikanın Yohannesburq şəhərində keçirilmiş Dayanıqlı İnkişaf üzrə Dünya Sammitində yenidən bir araya toplaşmışdır. Sammit iki əsas sənədin – Yohannesburq Bəyannaməsinin və İcra Planının qəbul edilməsi ilə nəticələnmişdir. Bəyannamə ölkə başçıları tərəfindən qəbul edilmiş yüksək səviyyəli siyasikommünike (beynəlxalq əhəmiyyətli məsələlərə dair hökumətin məlumatı, rəsmi xəbər) hesab edilir. İcra Planı yoxsulluğun aradan qaldırılması, təbii resursların, enerjinin, səhiyyə, ətraf mühit texnologiyalarının mühafizəsi və idarəçilik kimi sahələri əhatə etməklə məqsəd və vədlərin daha ətraflı və təsvirini əks etdirən bəyannamədir. Bu planda hökumətlər Rio prinsiplərinə və 21-ci Əsr Gündəliyinə olan öhdəliklərini bir daha təsdiq etmişdir. Bu plan gələcəkdə keçiriləcək auditlərin əsasını təşkil edəcəkmeyarları müəyyənləşdirdiyindən AAQ-lar üçün xüsusilə vacibdir.

**Bu, ətraf mühitlə bağlı narahatçılıqdan daha çox şey deməkdir.**

1.6 Dayanıqlı inkişaf ətraf mühitlə bağlı narahatçılıqdan nə ilə fərqlənir? Onların çox ortaq cəhəti var. Aydındır ki, ətraf mühit dayanıqlı inkişafın 3 təməl ünsüründən biridir. Bununla belə, dayanıqlı inkişaf ətraf mühitə toxunulmaz mütləq ünsür kimi baxmır. Əksinə, dayanıqlı inkişaf iqtisadi və sosial tərəqqi ilə ətraf mühit arasında dayanıqlılıq konsepsiyası əsasında tarazlığın və ya güzəştin olması zəruriliyini qəbul edir. (Cədvəl 1) Ümumilikdə isə iqtisadi və ya sosial tərəqqi dəyərli və əvəz edilməz olanları məhv etməməli və ya gələcək nəsilləri öz inkişafları və ya zövqləri naminə eyni resursları istifadə etməkdən məhrum etməməlidir.

## Cədvəl 1: Davamlı inkişaf üç ölçünu birləşdirir




Dayanıqlı inkişaf məqsədlərinə çatmaq iqtisadi, ətraf mühit və sosial hədəfləri əhatə edir.

Dayanıqlı inkişafın miqyası və iqtisadi, sosial və ətraf mühit qayğılarına verilən önəmi dair fərqli şərhlər mövcuddur.

1.7 Aydın şəkildə görünür ki, dayanıqlı inkişaf olduqca dəyişkən anlayışdır. Onun miqyası ətrafında hökumət orqanlarının və ayrı-ayrı şərhçilərin əhatə dairəsi barədə razılaşmadıqları bir sıra məqamlar var. Xüsusilə, dayanıqlı inkişafa dair geniş şərhlər sosial bərabərlik, sərvət və imkanların bölgüsü məsələləri də daxil olmaqla sosial məqsədləri əhatə edir. Bundan əlavə, dayanıqlı inkişafın hər bir aspektinə verilən əhəmiyyət geniş müzakirələrə səbəb olur.

## Cədvəl 2: Dayanıqlı inkişaf bir çox məsələləri əhatə edir




Qeyd: Bu quruluş müfəssəl deyil, burada göstərilən məsələlərin çoxu bir-biri ilə əlaqəlidir. Bu səbəbdən mümkün olan bütün əlaqələri göstərmək mümkün deyil. Dayanıqlı inkişaf anlayışı potensial olaraq çox geniş mövzulara aiddir

1.8 Daha praktik baxımdan dayanıqlı inkişafın geniş şərh edilməsi bir çox suallar yarada bilər.

## DAYANIQLI İNKİŞAF VƏ HÖKUMƏTLƏR

**Hökumətlər dayanıqlı inkişafa nail olmaq üçün çərçivə hazırlayırlar**

1.9 Hökumətlər dayanıqlı inkişafın təşviq edilməsində əsas rol oynayır. Onlar istiqamətin müəyyən edilməsi, qərarların qəbul edilməsi və koordinasiyanın təmin edilməsinə məsuldurlar. Onlar inkişaf və ətraf mühit məsələlərinə təsir edən beynəlxalq danışıqlarda millətin maraqlarını təmsil edir. Onlar istixana qazlarının buraxılmasının qarşısını almaq və ya dayanıqlı inkişafı təşviq etmək üçün milli proqramların hazırlanması kimi öhdəliklər götürürlər. Onlar bu öhdəlikləri həyata

keçirmək üçün strategiyalar hazırlayırlar. Təlimatın 2-ci hissəsində bu çərçivə və strategiyaların effektivliyinin qiymətləndirilməsində AAQ-ların rolu nəzərdən keçirilir.

**Onlar ətraf mühitə dair qaydalar və proqramlar hazırlayır**

1.10 Dayanıqlı inkişaf strategiyalarının hazırlanmasında hökumət dayanıqlı inkişafa təsir edəcək bir sıra siyasi alətlərə malikdir. Buraya iqtisadi maraq doğuranvə ya iqtsadi marağı boğan kimi təsirə malik vergi siyasəti, qabaqcıl təcrübələri önə çəkib pis təcrübələrin qarşısını alan qanunvericilik və ətraf mühit problemləri ilə sosial-iqtisadi ehtiyaclar arasında tarazlıq yaratmağa çalışan birbaşa xərc proqramları (məsələn: nəqliyyat və planlaşdırma) daxildir. Hökumətlər iqtisadi, səhiyyə və təhsilə dair siyasətlərinin də dayanıqlı inkişaf məqsədlərinə xidmət etdiyinə əmin olmalıdırlar. AAQ-lar büdcə təkliflərini (əgər mandatları varsa) sosial, iqtisadi və ətraf mühit məsələləri arasında tarazlığın yaradılması baxımından araşdırmalıdır. Təlimatın 3-cü hissəsi AAQ-ların dayanıqlı inkişafın proqram səviyyəsində auditinin keçirilməsi yollarını nəzərdən keçirir.

**Dayanıqlı inkişaf onların siyasətinin ayrılmaz hissəsidir**

1.11 Bir çox hökumətlər ətraf mühit problemlərini daha geniş anlamda nəzərdən keçirməyə çalışır. "İdarəetmənin yaşıllaşdırılması" kimi istinad edilən bu prosesin məqsədi ətraf mühit problemlərinə daha geniş siyasi aspektdə baxılmasını təmin etməkdir. Bütün yeni siyasətlərin (qərar və qaydaların) ətraf mühitə mümkün təsirlərinin qiymətləndirilməsi tələbi və ya yol tikintisi layihələrinin ekoloji cəhətdən qiymətləndirilməsi bu yanaşmaya misal ola bilər.

**Hökumətlər öz fəaliyyətlərini də "yaşıllaşdıra" bilərlər**

1.12 Hökumətlər eyni zamanda öz fəaliyyətlərinin ətraf mühitə olan təsirlərini azalda bilərlər. Bəzi milli və regional hökumətlər həm milli strategiyaya töhfə vermək, həm də müəssisələr və fiziki şəxslər üçün nümunə olmaq məqsədi ilə öz fəaliyyətlərini "yaşıllaşdırmağa" cəhd göstərəcəklər. Daha çox "yaşıl inzibati-təsərrüfat işləri" kimi tanınan təşəbbüslərə hökumət binalarının layihələndirilməsi zamanı tullantıların və enerji sərfiyyatının azaldılması misal ola bilər. Bu təşəbbüslər daha ətraflı 3-cü hissədə nəzərdən keçirilib.

## DAYANIQLI INKIŞAFIN AAQ-LARA TƏSIRI

**Dayanıqlı inkişaf auditi keçirilən təşkilatlar üçün önəmli olduğundan AAQ-lar üçün də əhəmiyyətlidir.**

1.13 Dayanıqlı inkişaf auditi keçirilən təşkilatlar üçün önəmli olduğundan AAQ-lar üçün də əhəmiyyətlidir . Əksər AAQ-ların konstitusional rolu və mandatı siyasət müəyyən etməyə deyil, yalnız onun icrasının auditini keçirməyə imkan verir. Təlimat buna görə də, AAQ-ların hökumətlərinin və ya qanunverici orqanlarının mövqeyini nəzərə almadan davamlı inkişafın tərəfdarı olması tələbini irəli sürmür. Bu sahədə effektiv auditin keçirilməsi hökumətin və ya idarənin dayanıqlı inkişaf prinsipləri və təcrübələrini nə dərəcədə qəbul etməsi ilə məhdudlaşır.  Əksər hallarda, dayanıqlı inkişaf prinsiplərinin və təcrübələrinin qəbul edilməsi xüsusilə mərkəzi hökumət səviyyəsində daha geniş hal alır.

**Dayanıqlı inkişaf auditinin əhatə dairəsi AAQ-ın mandatından asılıdır**

1.14  Dayanıqlı inkişafın, ondan irəli gələn strategiya və siyasətlərin çox olması auditin əhatə dairəsini genişləndirir. Bəzi AAQ-ların dayanıqlı inkişaf və ətraf mühit sahəsində xüsusi mandatı var. Bəzi AAQ-ların mandatı maliyyə və ya uyğunluq auditlərinin keçirilməsi ilə məhdudlaşdığı halda, digərlərinin mandatı səmərəlilik və ya birgə auditin keçirilməsini təmin edəcəkdir. Bəzi mandatlar tamamilə retrospektiv (keçmişə aid)bəziləri isə pre-audit və ya büdcənin auditinin keçirilməsini tələb edir və ya icazə verir. Bəziləri mərkəzi hökumətlə məhdudlaşacaq; digərləri isə regional və yerli hökumətləri, eləcə də səhmləri dövlətə məxsus müəssisələri əhatə edəcəkdir. Təlimat fərqli mandat və prioritetlər nəzərə alaraq AAQ-lar üçün bir-sıra seçimlər təqdim edir.

**Dayanıqlı inkişaf üzrə keçirilən auditlər adi audit standartları ilə uyğunluq təşkil etməlidir**

1.15  Dayanıqlı inkişaf üzrə keçirilən auditlər adi qaydada AAQ-ların tətbiq etdiyi standartlara, məsələn INTOSAI tərəfindən müəyyən edilmiş və ya milli standartlara uyğun aparılmalıdır. . Yuxarıda qeyd edilən məsələlər səbəbindən dayanıqlı inkişafın digər audit mövzularından daha mürəkkəb olması planlaşdırma, sübutların toplanması, təhlil və hesabatvermə üzrə standartlara riayət edilməməsi üçün əsas ola bilməz.

1.16 Burada standartlar və digər qiymətləndirmə meyarları əhəmiyyət kəsb edir. İstənilən audit mövcud vəziyyətlə nəzərdə tutulanın müqayisəsini əhatə edir. Bu, auditorlar, audit olunan təşkilatlar və əminlik üçün auditorlardan asılı olan maraqlı tərəflər arasında bəzi standartlar üzrə razılaşmaya əsaslanır. Davamlı inkişafda bu standartlar beynəlxalq razılaşmalardan və ya qanunvericilikdən, milli qanunvericilikdən, proqram vədlərindən və öhdəliklərindən, audit olunan təşkilat tərəfindən qəbul edilmiş əməliyyat standartlarından və ya oxşar fəaliyyətə malik digər təşkilatlarda ümumi qəbul edilmiş prosedur və təcrübələrdən formalaşa bilər. Bu meyarlar yoxlanılan təşkilatla müzakirə edilməli,mümkün olduqda auditorlar audit olunan təşkilattərəfindən hazırlanmış və ya qəbul edilmiş meyarlardan istifadə etməlidir.

1.17 Təlimatın 4-cü hissəsi AAQ-ların dayanıqlı inkişaf auditlərini keçirməsi üçün potensialını artırmaq imkanlarından bəhs edir. Bu hissədə prosesin ayrı-ayrı mərhələlərə bölünməsi ilə AAQ-ın effektiv dayanıqlı inkişaf auditlərinə keçə bilməsi tövsiyə edilir.

*Qeyd: Terminlər lüğəti sənədin axırında yerləşir.*

# 2-ci hissə

## 2. DAYANIQLI İNKIŞAF MILLI VƏ REGIONAL SƏVIYYƏDƏ

2.1 2-ci hissə milli və regional hökumətlərin dayanıqlı inkişaf üçün strategiya və siyasətlərin tətbiqivə AAQ-ın bunu  ətraflı öyrənməsi üçün açdığı imkanlardan bəhs edir. Aşağıda qeyd edilənlərin çoxu mərkəzi hökumət və milli səviyyədəki tədbirlərlə əlaqədar olmasına baxmayaraq bunların əksəriyyəti ətraf mühit, iqtisadi və sosial inkişafa təsir edən siyasətləri əlaqələndirmək və istiqamətləndirmək üzrə məsul olan regional və ya yerli hökumətlərə eyni dərəcədə tətbiq ediləcəkdir.

## DAYANIQLI İNKİŞAF STRATEGİYALARI

**1992-ci il "Yer kürəsi" Zirvə Görüşü sonra bir çox hökumət dayanıqlı inkişaf üzrə milli strategiyalar hazırlamışdır**

2.2 XXI əsr Gündəliyi digər məsələlərlə yanaşı, ölkələrin dayanıqlı inkişaf strategiyalarını hazırlamalarını tövsiyə etmişdir. Bir çox hökumətlər bunu artıq edib (cədvəl 3). Bu strategiyalar dayanıqlı inkişafa vahid, milli bir yanaşma təmin etmək, ölkə üçün bir istiqamət təyin etmək və beynəlxalq razılaşmalarla qarşıya qoyulan hədəflərə çatmağa kömək etmək məqsədi daşıyır.

2.3 Strategiyalar keyfiyyət baxımından fərqli olacaq. Bəziləri mövcud siyasəti əsaslı dəyişiklik etmədən sadəcə nümayiş etdirə və ya yenidən təqdim edə bilər; ən yaxşı strategiyalar isə inteqrasiya və dayanıqlılıq üçün əsl axtarışda olaraq iqtisadi tərəqqini ətraf mühit düşüncəsi ilə uzlaşdırmağa çalışır.

2.4 Strategiyalar bir qayda olaraq ibarətdir:

- Strategiya, koordinasiya, monitorinq və inkişaf haqqında hesabatların ümumi çərçivəsi.
- Dayanıqlı inkişafa aid xüsusi siyasət və ya proqramlar, məsələn, çirklənmənin qarşısının alınması, idarə edilməsi və ya dayanıqlı inkişaf düşüncəsini əks etdirməli olanlar, məsələn nəqliyyat.

**Cədvəl 3. Kanadanın dayanıqlı inkişafa dair milli strategiyası**

Kanada Federal Hökuməti, dayanıqlı inkişaf məqsədlərinə çatmaq üçün ümumi bir çərçivə hazırlayıb. Çərçivəyə ayrı-ayrı departamentlərin hər birinin ətraflı strategiyalarını dərc etməsi tələbi daxil edilmişdir. Bu strategiyalardepartamentlərin dayanıqlı inkişafı siyasətləri, proqramları və əməliyyatlarına daxil etmək üçün məqsədlərini və fəaliyyət planlarını təsvir etmək məqsədi daşıyır. Strategiyalar inkişafın qiymətləndirilməsi üçün meyar olmaq məqsədini daşıyır.

2.5 AAQ mandatına uyğun olaraq strategiyanın təməlini təmin edən nəqliyyat, su, mənzil, meşəçilik kimi xüsusi siyasətlər üzrə araşdırma apara bilər. Bu 3-cü hissədə daha ətraflı cədvəldə nəzərdən keçiriləcəkdir.

2.6 Əsaslı milli çərçivə daha çox fəaliyyətin idarə edilməsi dövrünə (tsiklinə), yəni “Planlaşdır, icra et, yoxla və təkmilləşdir” yanaşmasına  riayət edir. (Cədvəl 4) Dövr strategiya, məqsədlər, icra, hesabatvermə və inkişafın nəzərdən keçirilməsindən ibarətdir.

**Cədvəl 4: Fəaliyyətin idarəedilməsi dövrəsi**




Güclü dayanıqlı inkişaf strategiyasında məqsədlərin həyata keçirilməsi (tətbiqetmə), nailiyyətin ölçülməsi, nəticələrə dair hesabatın verilməsi və hesabatlılığın təmin edilməsi üçün tədbirlər görüləcəkdir

**Oxşar strategiyalar və hesabatların təqdim edilməsi sxemləri həm regional, həm də yerli səviyyədə qəbul edilə bilər**

2.7 Yerli və regional hökumətlər beynəlxalq müqavilələr imzalamasalar da, onların fəaliyyəti bu müqavilələrin tamamlanması və onların öhdəliklərinə nail olunmasına töhfə verə bilər. "Yerli hökumətlər üzrə XXI Əsr Gündəliyi"nin 28-ci fəslinin tövsiyəsinə əsasən yerli hökumətlər və qurumlar dayanıqlı inkişafın təşviq edilməsində öz üzərlərinə düşəni etməlidirlər. Bu təşəbbüs – "Yerli hökumətlər üzrə XXI Əsr Gündəliyi" "qlobal düşün, lokal (yerli) hərəkət et" şüarını əhatə etməklə dəyişiklik üçün mühüm vasitə kimi qəbul edilmişdir.

2.8 "Yerli hökumətlər üzrə XXI Əsr Gündəliyi" bütün yerli qurumlardan dayanıqlı inkişafa dair yerli planın hazırlanmasında yerli əhali ilə məsləhətləşməyi tövsiyə edir. Hər bir planın yerli şəraitdən asılı olaraq özünəməxsus xüsusiyyəti olsa da, istənilən prosesdə mövcud olan ümumi amilləri var:

- Plan yalnız ekoloji strategiya deyil, həm də iqtisadi və sosial məsələləri ehtiva etməlidir.
- Plan bütün cəmiyyəti və ya ən azından mövcud resurslarla mümkün olan ən geniş hissəni əhatə etməlidir.
- İlkin mərhələ yerli şərait və prioritetlər haqqında məlumat toplamaqdır.
- Daha sonra xüsusi fəaliyyətləri əhatə edən strategiya müəyyən edilir.
- Sonda, irəliləyişi ölçən göstəricilərin müəyyən edilməsi vacibdir.

**Cədvəl 5. Norveçin dayanıqlı inkişaf üzrə yerli strategiyaları**

1993-cü ildə Norveçdəki yerli hökumət orqanlarından ətraf mühit və resursların idarə edilməsi planlarını 21-ci əsrin fəaliyyət planlarına çevirmələri tələb edildi. "Ətraf mühitin yerli səviyyədə mühafizəsi" adlı islahat əsasında bir sıra inkişaf proqramları başladıldı. Əsas proqramlardan biri ətraf mühitə, xüsusən də uzunmüddətli təsirlərə dair qiymətləndirmələr aparmaq üçün yerli hökumət tərəfindən istifadə olunan vasitələri inkişaf etdirmək məqsədi daşıyırdı. Başqa bir layihə, yerli idarəetmə ilə ictimaiyyət arasında dayanıqlı inkişaf məsələləri üzrə əlaqəni yaxşılaşdırmağa yönəlmişdir.

**Dayanıqlı inkişaf strategiyalarının auditinin əhatə dairəsi**

**AAQ-lar strategiyanın tərtib edilməsini araşdıra bilər**

2.9 Milli (Mərkəzi) və yerli dayanıqlı inkişaf strategiyalarının səmərəlilik auditinin əhatə dairəsi çox genişdir. Potensial audit sahələrindən bəziləri aşağıda verilmişdir. Onlar Cədvəl 4-də göstərilən fəaliyyətin idarə edilməsi modelinə uyğun başlıqlar altında təşkil edilmişdir., Aşağıdakı siyahıda sualları cavablandırıla bilən kimi bölməyə çalışsa da,bəzi suallar digərlərinə nisbətən daha sadə cavablar tələb edir.

| Audit məsələləri: dayanıqlı inkişaf strategiyaları |
|---|
| • Hökumətin məqsədlərini açıq şəkildə ifadə edən bir strategiyası və ya planı varmı?<br>• Strategiya hökumətin beynəlxalq öhdəliklərinə uyğundurmu?<br>• Strategiya məqsədlərə çatmaq üçün istifadə ediləcək siyasət alətlərini (vasitələrini) dəqiq müəyyən edirmi?<br>• Strategiya və siyasət alətlərinin (vasitələrini) seçimi görülməli işlər barədə doğru, ətraflı məlumata əsaslanırmı?<br>• Strategiya siyasətlər arasında qarşılıqlı əlaqəni, iqtisadiyyat, cəmiyyət və ətraf mühit arasındakı tarazlığı əks etdirməklə həqiqətən də vahiddirmi?<br>• Strategiya onun (strategiyanın) həyata keçirilməsinə xarici və ya daxili maneə yaradırmı?<br>• Strategiya mümkün qədər hədəf və cədvəllərdə əks olunubmu?<br>• Büdcə təkliflərinin AAQ tərəfindən araşdırıldığı hallarda, “dayanıqlı inkişaf” üçün ayrılmış məbləğ nə qədərdir və bunun hansı hissəsi “yaşıl məsələlərə” ayrılıb?<br>• Hökumət, həyata keçirilən strategiyaların nəticələrini Parlamentə bildirmək üçün effektiv məlumat sistemi hazırlayıbmı?<br>• Hökumət vətəndaşlara davamlı inkişaf strategiyaları və bu sahədə irəliləyişlər barədə məlumat vermək üçün hansısa bir yol müəyyən edibmi?<br>• Hökumət ətraf mühit məsələləri ilə məşğul olan QHT-lərin fəaliyyətinə nəzarət etmək (izləmək) və əlaqələndirmək üçün hər hansı bir sistem yaradıbmı? |

2.10 Hökumət strategiyasının sabit (qəti) meyar əsasında auditinin keçirilməsi çətin olsa da, dövlət orqanlarının dayanıqlı inkişaf yanaşmasını gündəlik fəaliyyətlərində nə dərəcədə mənimsəməsi məsələsi yoxlanıla bilər. AAQ dövlət orqanları ilə birlikdə çalışaraq, beynəlxalq müstəvidə və digər böyük təşkilatlardakı vəziyyəti müqayisə edərək, hökumət daxilində strateji qərar verənlərə qabaqcıl təcrübə nümunələrini müəyyənləşdirmək və yaymaqda kömək edə bilər.

| Cədvəl 6. Norveçdə ətraf mühit üzrə xərclərə dair hesabatın verilməsi |
|---|
| Norveç Hökuməti 1989-cu ildə ümumi ekoloji siyasət və xərclərə dair hesabatı Norveç Parlamentinə təqdim etdi. Norveç Baş Auditor Ofisi bu hesabatı 1997 və 1998-ci illər ərzində araşdırdı.<br><br>Ətraf mühit siyasəti ilə bağlı qrantların yekunu faydalı vasitədir. Bununla belə, ətraf mühitin mühafizəsi tədbirlərinə dair dövlətin ümumi xərclərinin dəqiq məbləği barədə məlumatı təmin edə biləcək sistemin olması vacibdir. Aparılan audit nəticəsində qrant məbləğlərininNazirliklər arasında eyni qaydada hesablanmadığı müəyyənləşdirilmişdir . Audit Hökumətin ətraf mühitə dair tədbirlərini Ətraf Mühit Nazirliyi tərəfindən istifadə edilən "nəticə kateqoriyalarına" görə təsnifatlaşdırmaqda çətinlik çəkdiyini də aşkar etdi. Bunun əsas səbəbi isə bir tədbirin müxtəlif ekoloji məqsədlərə cavab verə bilməsi idi (yəni eyni zamanda bir neçə "nəticə kateqoriyası" na daxil olması).<br><br>Hökumət “Ətraf mühit profili və ölkədə ətraf mühitin vəziyyəti”nə dair yeni sənədin hazırlanması prosedurlarını inkişaf etdirməli idi. |

# DAYANIQLI İNKİŞAF HƏDƏF VƏ GÖSTƏRİCİLƏRİ

**Fəaliyyətin və inkişafın ölçülməsi audit üçün əsas sahə olacaqdır**

2.11 Dayanıqlı inkişaf üzrə qabaqcıl strategiyaya hədəflər və həmin hədəflərə nail olunması istiqamətində irəliləyişi ölçən göstəricilər daxil edilməlidir (Cədvəl 7). [Qeyd: burada "göstəricilər" sözündən həm fəaliyyət (performans) ölçülərini, həm də göstəricilərini ifadə etmək üçün istifadə edirik[1]]. Bəzi hallarda, hədəflər beynəlxalq müqavilələrə imza atan milli hökumətlər tərəfindən götürülmüş öhdəlikləri yerinə yetirmək məqsədi daşıya bilər. Göstəricilər adətən hökumətlərin dayanıqlı inkişaf məqsədləri üzrə irəliləyişlərə (inkişafa) cavabdeh olmasını təmin etməkdə zəruridir. Bu səbəbdən hədəflər və göstəricilər AAQ-nın araşdırması üçün mühüm sahələrdir.

Cədvəl 7: Birləşmiş Krallıqda göstəricilərin inkişafı

Birləşmiş Krallıq 1999-cu ildə maraqlı tərəflərlə məsləhətləşmələrdən və ətraflı araşdırmadan sonra dayanıqlı inkişafa dair milli göstəriciləri yenidən müəyyən etmişdir. Hökumətdə irəliləyişə dair yüksək təsəvvür yaratmaq və ictimaiyyətə məlumat verilməsini sadələşdirmək üçün "aparıcı" göstəricilər müəyyən edildi. Bu göstəricilər aşağıakılardır:

- Ümumi daxili məhsul (ÜDM);
- Dövlət, biznes və özəl aktivlərə investisiya;
- Əmək qabiliyyətli insanların işləyənlərə nisbəti;
- 19 yaş ixtisasları; ?
- Ehtimal olunan sağlam həyat müddəti;
- Yaşamağa yararsız hesab edilən evlər;
- Cinayət səviyyəsi;
- İstixana qazlarının emissiyası;
- Hava çirkliliyinin orta və ya yüksək olduğu günlər;
- Yol hərəkəti;

[1] Meyarlar birbaşa ölçüləri ifadə edir, məsələn əkilmiş ağacların sayı. Bundan fərqli olaraq, göstəricilər dolayı ölçüləri əks etdirə bilər, məsələn zərərli qazların konsentratı havanın keyfiyyətinin ölçülməsi.Ətraf mühitdə çox şey birbaşa ölçülə bilmir, amma dolayı yolla da olsa dəyərləndirilməlidir və biz bundan sonra "göstəricilər" termininindən istifadə edəcəyik.

- Yaxşı və ya orta keyfiyyətli çaylar;
- Vəhşi quşların populyasiyaları;
- Əvvəllər işlənmiş ərazilərdə tikilmiş yeni evlər;
- Tullantıların istehsalı və idarə edilməsi.

Bu göstəricilər əsasında irəliləyişə dair hesabat hər il verilir. Yeni göstəricilər əsasında ilk qiymətləndirmə 1999-cu ilin dekabırında dərc edilmişdir. Qiymətləndirməyə əsasən səyahətlərin müddətində və məişət tullantılarında artım, həmçinin cinayətlərin artması və potensial narahatlıq mənbəyi olaraq heyvan və bitki növlərinin və yaşayış yerlərinin itkisi müəyyən olunmuşdur.Bu aparıcı göstəricilərdən əlavə 150 ətraflı göstərici toplusu mövcuddur. Məsələn, suya dair aparıcı göstərici "yaxşı və ya orta keyfiyyətli çaylar" olsa da, suda qidalandırıcı maddələri, su tələbatını və mövcudluğunu, suyun əlçatanlığını, su sızıntısını, su istifadəsinin həcmini və su çıxarılması ilə əlaqədar təsirə məruz qalan sahələri əhatə edən bir sıra əlaqəli göstəricilər də mövcuddur.

**Dayanıqlı inkişaf hədəflərinin və göstəricilərin auditinin əhatə dairəsi**

2.12 Hədəflər və göstəricilər AAQ-lara üç geniş sahənin auditini keçirməyə imkan verir:

- Hədəflərin real olmasını, onların müvafiq anlayışa əsaslanmasını vəhəqiqətən görülməli olan işlərin bu olduğuna sübutu araşdırmaq hədəflərin auditini təşkil edir;
- Göstəricilərin müvafiqliyi və etibarlılığını yoxlamaq üçün göstəricilərin auditi;
- Müvafiq hədəflər üzrə göstəricilərin müqayisəsi nəticəsində aşkar edilmiş inkişafın auditi.

Hədəflərin və göstəricilərin nəzərdən keçirilməsinə başlamazdan əvvəl, AAQ-lar istədikləri audit suallarını cavablandırmaq üçün kifayət qədər təcrübəyə malik

olduqlarından əmin olmalıdırlar. İstifadə olunan hər hansı bir hədəf və göstəricinin uyğunluğunu və etibarlılığını nəzərdən keçirərkən AAQ uyğun audit meyarlarını hazırlamalı və istifadə etməlidir.

**Dayanıqlı inkişaf üzrə hədəflər audit predmeti ola bilər**

2.13 Hər bir göstərici üçün hədəflərin müəyyən edilməsinə ehtiyac yoxdur, siyasət (qayda) hazırlayanların az sayda əsas hədəflərə diqqət yetirmələri və hədəfləri olmayan göstəricilər arasında arzu olunan meyilləri axtarmaları çox güman daha yaxşı olardı. Hədəflər müəyyən bir elmə və yaxşı başa düşülən proseslərə əsaslana bilər. Bu, dayanıqlı norma dəyərləri (göstəriciləri) kimi qəbul edilən kəmiyyəti təyin etmək məsələn, qorunmalı balıq ehtiyatlarının səviyyəsini müəyyən etmək üçün istifadə edilə bilər. Lakin bununla belə hədəflər yalnız beynəlxalq müqavilədə göstərilə bilər və ya dəyişiklik arzusundan başqa bir məna kəsb etməyə,və ya güzəşti təmsil edə bilər. İstənilən son vəziyyət və ya nəticə üçün hədəflər təyin edilə bilər, məsələn təmiz hava və ya buna səbəb olan avtomobil istifadəsinin azaldılması; problemlərin aradan qaldırılması ilə əlaqədar işlər, məsələn çirklənmələrə dair şikayətlərin sayı və ya çayların uzunluğu su ilə əlaqədar qanunvericilik . Hökumət tərəfindən dayanıqlı inkişaf hədəflərinin qiymətləndirilməsi üçün meyarlar müəyyən edilməyib. Bununla belə, Birləşmiş Krallıq AAQ-ının fəaliyyəti əsasında auditi keçirilə bilən bəzi əsas suallar mövcuddur.

Audit məsələləri: dayanıqlı inkişaf hədəfləri

AAQ-lar hədəfləri aşağıdakı əsasında nəzərdən keçirə bilər. Hədəflər:

- əsas sahələri əhatə edirmi;
- beynəlxalq öhdəlikləri əks etdirirmi;
- Hökumət tərəfindən müəyyən edilmiş məqsəd və göstəricilər ilə birbaşa əlaqəlidirmi;
- aydın məntiqə, məsələn əsas problemlərin və onların səbəblərinin əsaslı elmi izahına əsaslanırmı;
- mövcud vəziyyətin əsaslı şəkildə qiymətləndirilməsinə əsaslanırmı; karbon dioksid qazının 1998-ci il ilə müqayisədə 3 faizə qədər azaldılması,
- Gələcəyə qədər uzanan hədəflər üçün mərhələlər müəyyən edilməklə hər-hansı bir vaxt məhdudiyyəti varmı;

- Hədəf nə zaman müəyyən edilib,bu istiqamət üzrə inkişaf necə, hansı müddətlərdə (aralıqlarla) və kim tərəfindən qiymətləndiriləcək kimi məsələlər qiymətləndirmə planında tam dəqiq müəyyən edilibmi;
- Məlumatların qeyri-müəyyənliyi çərçivəsində qiymətləndirilə bilirmi, məsələn AAQ-lar fəaliyyətin nəticəsinə dair hazırlanmış hesabatlarda mümkün səhvlərin ola biləciyinin qeyd olunmasını tələb edə bilərlər;
- əsas icraçılar müvafiq şəkildə məlumatlandırılırmı,
- müvafiq fəaliyyət planları və resurslar ilə uyğunlaşdırılırmı,
- Vətəndaşlar tərəfindən performansın kifayət qədər geniş əsasda qiymətləndirilməsiüçün fəaliyyətin nəticəsini digər göstərici və hədəflər ilə müqayisənə də hesabatda yer verilirmi.

**Göstəricilərin auditi də məqsədəmüvafiq ola bilər**

2.14 Dayanıqlı inkişaf göstəricilərini nəzərdən keçirərkən AAQ-lar tərəfindən fəaliyyətin ölçülməsi zamanı tətbiq edilən standart yanaşmadan istifadə etmək mümkün olsa da, əlavə məsələlər də nəzərə alınmalıdır. Bir çox təbii sistemlər üçün, məsələn inkişafın qiymətləndirilməsi əhəmiyyətsiz bir iş hesab edilə bilməz. Məsələn, atmosferdəki çirkləndiricilərin ölçülməsi ölçülərin alındığı yerdən, mövcud hava şəraitindən və ölçü cihazlarının nə qədər etibarlı olmasından köklü şəkildə asılı olacaqdır. Aydındır ki, irəliləyiş ardıcıl şəkildə izləniləcəksə, bu prosesi izləmək üçün ən yaxşı yola daha çox fikir verilməlidir. Digər hallarda, araşdırılan hadisə daha az dəyişikliyə məruz qala bilər və buna görə də 5-10 illik fasilələrlə hesabat vermək uyğundur. AAQ-lar Hökumətlər tərəfindən istifadə edilən qiymətləndirmə və hesabat proseslərinin etibarlılığını nəzərə alarkən bu praktiki məsələlərdən xəbərdar olmalıdırlar.

2.15 İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) dayanıqlı inkişaf göstəriciləri üzrə arzu olunan xüsusiyyətlərə dair faydalı siyahı dərc etmişdir ki, bu da öz növbəsində milli göstəricilərə baxılarkən AAQ-lar tərəfindən nəzərdən keçirilə bilər.

| Cədvəl 8: Dayanıqlı inkişaf göstəricilərinə dair OECD-nin təlimatı |
| --- |
| Audit məsələləri: dayanıqlı inkişaf göstəriciləri<br>AAQ-ların göstəriciləri nəzərdən keçirərkən diqqət etməli olduqları məqamlar:<br>• Göstəricilər siyasətə uyğundurlarmı, yəni:<br>- şərh edilməsi asandır;<br>- zamanla yaranmış trendləri göstərir;<br>- aparıcı qüvvələrdəki dəyişikliyə cavab verir; və<br>- inkişafın ölçülə biləcəyi hədd və limit dəyərlərinə malikdir.<br>• analitik cəhətdən ağlabatandır, məsələn, dayanıqlı inkişaf məqsədinin aydın anlaşılmasına əsaslanırmı;<br>• ölçülə biləndir, yəni nəzəri quruluş nə qədər cəlbedici olursa olsun, əgər bir göstərici ağlabatan qiymətlə ölçülə bilməzsə, bu faydalı deyil. |

**AAQ-lar həmçinin hədəf və göstəricilərin səbəb olduğu nəticəni/inkişafı nəzərdən keçirə bilər**

2.16 Nəticədə hədəflər və əlaqədar göstəricilərin texniki baxımdan düzgün müəyyən olunması aşkar edilərsə və ya düşünülərsə, AAQ onların səbəb olduğu inkişafı nəzərdən keçirə bilər.

- Hədəf üzrə müəyən edilmiş son tarix keçibsə, audit yalnız hədəfə nail olunub-olunmamasına dair şərh verə bilər. Daha sonra hədəfə nail olunub-olunmama səbəblərinin izah edilməsinə, həmin hədəfə nail olmaq siyasətinə çəkilən xərci və effektivliyi/nəticəliliyi və ya həmin siyasətlərin gözlənilməz nəticələrinə diqqət yönəldilə bilər.
- Əgər son tarixə hələ vaxt varsa audit hədəfə nail olunub-olunmayacağına diqqəti yönəltməlidir. Bu, tətbiq baxımından daha çətin konsepsiyadır. Belə ki, son və ya hətta hazırkı tren belə son tarixdən əvvəl nələrə nail olunacağını göstərməyə bilər. Ola bilər ki, siyasi vasitələr bu uzunmüddətli trendə təsir etməsin və ya nəticəyə təsir edəcək digər əsas trendlər mövcudolsun. AAQ-lar, mövcud trendin davam edəcəyi təqdirdə, hədəflərə nail olunacağına dair daha etibarlı hesab edilən bir fikri bildirməklə kifayətlənə bilərlər. Əvvəl də qeyd edildiyi kimi AAQ inkişafın və ya onun olmamasının səbəblərini, hədəfə çatmaq üçün nəzərdə tutulan siyasətlərin nailiyyətini, gözlənilməz nəticələri araşdıra, həmçinin hədəfə nail olmaq üçün görülməli olan tədbirləri nəzərdən keçirə bilər.

# EKOLOJİ TƏSƏRRÜFAT VƏ ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİ SİSTEMLƏRİ

2.17 Dövlət qurumları iqtisadiyyatda dayanıqlı inkişafı təşviq etmək üçün milli strategiyalar hazırlamaqla yanaşı, öz fəaliyyətlərinin ətraf mühitə təsirini məhdudlaşdırmaqla da yardımçı ola bilərlər. Mərkəzi və yerli hökumət tərəfindən ekoloji (yaşıl) təsərrüfat çərçivəsində ətraf mühitə olan təsirləri minimuma endirmək üçün adətən enerji və su sərfiyyatını azaltmağa, həmçinin təkrar emal və tullantıların idarə edilməsi sistemlərinin hazırlanmasına diqqət yönəldir. Ekoloji təsərrüfat ideyasını qəbul etməklə, hökumətlər bərpa olunmayan resursların qorunmasına kömək olur və saxlama xərclərini azaldır.

**Ətraf mühitin idarə edilməsi sistemi təşkilatlara ekoloji məsuliyyətlərini qənaətcil şəkildə yerinə yetirməyə kömək edə bilər**

2.18 İstər hökumət, istərsə də özəl sektor tərəfindən ekoloji təsərrüfat ideyası "ətraf mühit idarəetmə sistemlərinin" qəbul edilməsini əhatə edə bilər. Bunlar ətraf mühit və dayanıqlı inkişaf problemlərinin gündəlik qərarlarda əks olunmasını təmin etmək üçün hazırlanmış idarəetmə çərçivələri və əlaqəli proseslərdir.

2.19 Beynəlxalq səviyyədə dayanıqlı inkişafa nail olma ətraf mühitə dair problemin korporativ, layihə və mövcud məkan səviyyəsində idarəetməyə daxil edilməsindən asılı olduğu qəbul edilir. Beynəlxalq Standartlar Təşkilatı tərəfindən hazırlanmış ISO 14000 standartları hökumətlərə və dövlət qurumlarına beynəlxalq səviyyədə qəbul edilmiş meyarlara riayət edərək ətraf mühit məsələlərinə diqqət yetirməyə imkan verir. ISO 14000 seriyasının məqsədi ətraf mühitin idarə edilməsində ortaq bir yanaşmanı təşviq etmək və təşkilatların ətraf mühit üzrə fəaliyyətlərində inkişafa nail olmaq bacarığını gücləndirməkdir. Qeyd edilən standartlar bütün növ təşkilatlara aiddir və coğrafi, mədəni, sosial fərqlilikləri əhatə etmək üçün hazırlanıb. ISO 14000 seriyasından olan ISO 14001 ətraf mühitin idarə edilməsi sistemi üzrə standartdır və əsas elementləri aşağıdakılardır:

- Ekoloji siyasət, həmçinin məqsəd və hədəflərə nail olmaq yolu ilə bu siyasətə riayət etmək tələbi;
- Təşkilatın satınalmalarının, proseslərinin, məhsul və xidmətlərinin ekoloji tərəflərinin təhlili;

- Ətraf mühitə əhəmiyyətli təsir göstərə biləcək fəaliyyətlərin monitorinqi, qiymətləndirilməsi və qeydiyyatı da daxil olmaqla yoxlama və düzəldici tədbirlər;
- Ətraf mühitin idarə edilməsi sisteminin davamlı olaraq uyğunluğunu, tamlığınl və effektivliyini təmin etmək üçün təşkilatın rəhbərliyi tərəfindən həmin sistemin nəzərdən keçirilməsi;
- Davamlı inkişaf konsepsiyası.

| Cədvəl 9: Dövlət müəssisələrində ətraf mühitin idarə edilməsi sistemləri<br><br>Avstriya AAQ-ı ISO 14001 və ya Avropa Birliyinin Eko-İdarəetməsi və Audit Sxemi (EMAS) kimi beynəlxalq standartlara uyğun olaraq dövlət müəssisələrində ətraf mühitin idarə edilməsi sistemlərini təşviq etməyə çalışır. AAQ öz hesabatlarında bu cür sistemlərin tətbiqinin yalnız ekoloji üstünlüklərini deyil, həmçinin iqtisadi üstünlükləri və işçilərin motivasiyasına olan müsbət təsirini göstərir. Avstriya AAQ-ı enerji təchizatı sektorunda "Resursların kompleks şəkildə planlaşdırılması" və "Ən az xərcin planlaşdırılması" kimi müvafiq metodları da tətbiq edir.<br><br>İranda bir çox dövlət şirkəti Ətraf Mühit Departamentinin nəzarəti altında ISO 14001 standartının akkreditasiyasını almışdır. |
|---|

2.20 Ətraf mühitin idarə edilməsi sistemləri üzrə ISO 14000 beynəlxalq standart seriyasından əlavə, Avropa Birliyinin Eko İdarəetmə və Audit Sxemi, həmçinin Kanada Standartlar Birliyinin standartları kimi regional və milli standartları da mövcuddur.

| Cədvəl 10: Cənubi Afrikada ətraf mühit məsələlərinin idarə edilməsi<br><br>Cənubi Afrika Hökuməti, 1998-ci ildə Ətraf Mühitin İdarə edilməsinə dair Milli Qanununun (NEMA) təsdiqlənməsi ilə nəticələnən Cənubi Afrikada Ətraf Mühitin İdarə Edilməsi üzrə araşdırma sənədində öz ümumi siyasətini formalaşdırmışdır. Qanuna əsasən əsas maraqlı tərəflər ətraf mühitin idarə edilməsi planlarını təqdim etməli və ətraf mühitin idarə edilməsinə dair hər il hesabat verməlidirlər. Qanun, yoxsulluğun azaldılması ilə dayanıqlı inkişaf arasındakı tarazlığın idarə olunmasına diqqət yetirilməsini tələb edir. |
|---|

## ƏTRAF MÜHİTİN İDARƏ EDİLMƏSİ SİSTEMLƏRİNİN AUDİTİNİN ƏHATƏ DAİRƏSİ

**AAQ ətraf mühit üzrə idarəetmə sistemlərinin tətbiqini yoxlaya bilər**

2.21 Ətraf mühitin idarə edilməsi sistemi planlaşdırma, icra, yoxlama, təhlil etmə və daim təkmilləşdirmə mərhələlərindən ibarət olan dövri bir prosesdir. Belə olduqda, AAQ tərəfindən keçirilən audit nəticə deyil prosesə yönələcəkdir. AAQ-ın ünvanlamaq istədiyi suallar hökumət idarələrinin ətraf mühitin idarə edilməsi sistemini qəbul etmə dərəcəsini, sxemlərin düzgün tətbiq edilib-edilməməsini və mövcud sistemlərin auditindən hansı dərslərin çıxarıldığını əhatə edə bilər.

| Audit məsələləri: ətraf mühit məsələlərinin idarə edilməsi sistemləri |
|---|
| • Ətraf mühit məsələlərinin idarə edilməsi sistemlərindən nə dərəcədə istifadə edilir?<br>• Bu idarəetmə sistemləri ISO 14000 və ya EMAS kimi beynəlxalq səviyyədə tanınmış standartlara rəsmi qaydada akkreditasiya (qəbul olunubmu, sertifikatı alınıbmı) olunubmu?<br>• Bu sistemlər nə dərəcədə yaxşı tətbiq edilir?<br>• Ətraf mühitin idarə edilməsi sistemlərinin auditləri hansı ətraf mühit məsələlərinin təşkilatın planlaşdırmasına daxil edilməsinə dair nələri aşkar edir?<br>• Ətraf mühitin idarə edilməsi sistemləri müəyyən edilmiş ekoloji problemlərlə bağlı bütün məsələləri həll edirmi? |

## DAYANIQLI İNKİŞAF ÜZRƏ HESABATLILIQ (CAVABDEHLİK) VƏ HESABATIN VERİLMƏSİ

**AAQ-lar inkişafa dair hesabatlılıq (cavabdehlik) və hesabat vermənin keyfiyyətinə nəzarət edə bilərlər**

2.22 Hökumət tərəfindən istifadə olunan hesabat sxemləri məqsədlərə nə dərəcədə nail olunmasını dəqiqliklə göstərməlidir. İdeal olaraq, fəaliyyət üzrə qiymətləndirmələr bir yerə toplanmalı və oxucuya fərqli məqsədlərə dair qərarlar nəticəsində birinin

digərinin yerini tutması kimi məsələləri anlamağa imkan vermək üçün bu barədə mütəmadi olaraq hesabat verilməlidir.

2.23 Maliyyə məlumatlarının auditi sahəsindəki təcrübələrini nəzərə alaraq AAQ-lar daha yaxşı hesabatvermə standartları (norması) baxımından mühüm rol oynaya bilər. Dayanıqlı inkişafa aid məsələlər aşağıdakılar daxil ola bilər:

- Hesabat dövrləri üzrə fəaliyyətin nəticələrinə dair hesabatın verilməsində sabitliyin (dəyişməzlik, daimiliyin) olması;
- Gözlənilən nəticələrdən kənarlaşmalaravə izah edici? məlumatlarla bağlı məhdudiyyətlərə dair hesabatın verilməsi;
- Xüsusilə mühüm məsələlərin qanunverici orqanın diqqətinə çatdırılması.

| Auditlə əlaqədar məsələlər: hesabatlılıq (cavabdehlik) və hesabatvermə |
|---|
| • Nəticələr barədə hesabat vaxtında, dəqiq, anlaşılan və uyğun şəkildə təqdim edilirmi?<br>• Nəticələr üzrə hesababatlılıq (cavabdeh) olan şəxs və ya qurum mövcuddurmu?<br>• Milli hədəflər üzrə nail olunmuş inkişafın nəzərdən keçirilməsi nələri göstərir?<br>• Nəticələr, tövsiyələr və qazanılmış təcrübələr praktikada öz əksini tapırmı?<br>• Öhdəliklərin yerinə yetirilməməsi və ya yətəri qədər irəliləyişin olması aydın şəkildə izah edilir və əsaslandırılırmı? |

**Təbii resursların uçotunun aparılmasının əhəmiyyəti**

2.24 Gələcəkdə hesabatlılıq çərçivəsində hesabatlılıq zəncirinin əsas elementlərindən biri təbii resurların uçotu ola bilər (ehtiyatlar və axınlar). Təbii resursların uçotu çox vaxt milli hesablara əlavə olaraq tərtib edilir. Ümumiyyətlə, təbii resursların uçotu ətraf mühit və iqtisadiyyat arasında əlaqə və təsirləri nümayiş etdirmək üçün mühüm vasitə hesab edilə bilər.

Cədvəl 11: Cənubi Afrika AAQ-ı milli resursların uçotunun hazırlanmasına cəlb edilmişdir

Cənubi Afrika AAQ-ı Cənubi Afrika üçün milli resursların uçotunu hazırlayan işçi qrupda təmsil olunur. Qrup hazırda bu cür uçotun su ehtiyatları üzrə aparılması metodologiyasını hazırlayır. Metodologiya hazır olduqda onun bir sıra dayanıqlı inkişaf strategiyalarına və təşəbbüslərə tətbiq edilməsi nəzərdə tutulur.

**Bəzi AAQ-ların təbii resurs hesablarının auditini keçirmək səlahiyyəti ola bilər**

2.25 Hazırda təbii resursların uçotu konsepsiyasına geniş beynəlxalq dəstək verilir. Beynəlxalq təşkilatlara Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Dünya Bankı daxildir. INTOSAI-ın Ətraf Mühitin Auditi üzrə İşçi Qrupu Təbii Resursların Uçotu və bunun AAQ-larla əlaqəsinə dair sənəd hazırlamışdır. Bəzi AAQ-lar bu hesabları yoxlamaq və ya onlara şərh vermək səlahiyyətinə malik ola bilərlər.

## NƏTİCƏ

Bu hissədə dayanıqlı inkişafın bir çox yolla milli, regional səviyyədə əks olunmasını və bununla da AAQ-a faydalı işlər görməyə imkan yaratmasını gördük. Bu imkan isə əsasən, hökumətin davamlı inkişaf prinsiplərini və təcrübələrini nə dərəcədə qəbul etdiyi ilə müəyyən ediləcək. Hökumətin fəaliyyət göstəriciləri və strategiyası, həmçinin bu fəaliyyəti təmin etmək sistemləri olarsa, bu zaman AAQ-ın işi asanlaşmış olur. Bu cür çərçivələr olmadıqda, AAQ bu sahədəki fəaliyyəti bu təlimatın növbəti hissəsində bəhs edilən fərdi proqramların auditi ilə məhdudlaşa bilər.

## 3-cü hissə

# 3. DAYANIQLI İNKİŞAF PROQRAM SƏVİYYƏSİNDƏ

Bu hissədə AAQ-ların dayanıqlı inkişafı proqram səviyyəsində yoxlamasından bəhs edəcəyik

3.1 2-ci hissədə hökumətlərin dayanıqlı inkişaf üçün hazırlaya biləcəkləri strateji çərçivəni və bunun AAQ-lar üçün təmin etdiyi imkanları araşdırdıq. Bu hissədə isə AAQ-ların dayanıqlı inkişafın ayrı-ayrı siyasətlərdə və ya xərc proqramlarında necə əks olunduğunu araşdırması imkanlarından bəhs edəcəyik.

## PROQRAMLAR VƏ DAYANIQLI İNKİŞAF

Dayanıqlı inkişaf bir çox proqramlara təsir edir

3.2 Ayrı-ayrı proqramların effektiv olması üçün qarşıya qoyulan məqsəd və hədəflərdə dayanıqlı inkişaf strategiyaları da nəzərə alınmalıdır.

Məsələn, atmosferdəki karbondioksit səviyyəsini azaltma öhdəliyi, aşağıdakı proqramlarda əks oluna bilər:

• ağır sənaye emissiyaları üçün müəyyən edilmiş hədlər;

• avtomobil emissiyalarının daha sərt tənzimlənməsi və sınaqdan keçirilməsi;

• avtomobillərdən istifadənin qarşısını almaq üçün görülən tədbirlər;

• və bu kimi bir çox siyasətlər.

2-ci hissədə göstərildiyi kimi, dayanıqlı inkişaf konsepsiyaları və problemlərindən təsirlənən bir çox siyasət sahəsi və proqramlar var.

| Cədvəl 12: Peruda meşələrin idarə edilməsi<br><br>Peru AAQ-ı, 1998-ci ildə Alexander von Humbolt Milli Meşəsində Meşə İdarəetmə Layihəsinin auditini keçirmişdir.<br><br>Auditin məqsədi meşənin kənd təsərrüfatı məqsədi ilə istismardan qorunmasını, ictimaiyyətin istifadəsinə ehtiram göstərilməsini və ağac kəsilməsinin dayanıqlı |
|---|

meşəçilik fəaliyyəti haqqında Beynəlxalq Tropik Meşələr Konvensiyasına uyğunluğunu yoxlamaq idi. Audit layihə ilə əlaqədar bir sıra ciddi çətinlikləri üzə çıxardı:

- Taxta hasilatına qeyri-kafi nəzarət, belə kilayihə meşə ehtiyatlarına effektiv nəzarəti təmin etmək üçün lazımi insan və logistika resurslarına malik deyildi,
- Ətraf mühitə təsir üzrə texniki şərtlər əvvəlcədən müəyyən edilsə də, əslində ətraf mühitin mühafizəsi proqramının əksər hissəsi yerinə yetirilməmişdir,
- Layihə üçün təyin edilmiş torpaqların 40 faizi layihənin məqsədlərini dəstəkləməyən yerli xalqın tabeliyində qalmışdı,
- Meşə təsərrüfatı layihələrinin səmərəliliyinin və nəzarətinin qiymətləndirilməsi üçün yetəri qədər meyar olmamışdır,
- Taxta satışı ilə bağlı maliyyə nəzarəti zəif olmuşdur.

Bəzi proqramlarda dayanıqlı inkişaf mühüm məsələdir

3.3 İqtisadi, ekoloji və sosial hədəflər arasında təsirin (tərs mütənasib təsir) ən çox nəzərə çarpan və kəskin ola biləcəyi proqramlara yol tikintisi, balıqçılıq, taxta istehsalı, kənd təsərrüfatı subsidiyaları və enerji istehsalı daxildir. Bu sektorlarda fərqli məqsədlər bir-birinə qarşı işləyə bilər. Bununla belə, digər proqramlarda enerji səmərəliliyinin, iqtisadi, ekoloji və sosial məqsədlərin yaxşılaşdırılması ilə bağlı tədbirlər üst-üstə düşə və dəyişiklik üçün təzyiqi gücləndirə bilər.

Ekoloji problemlərin iqtisadi və ya sosial məqsədlərlə uzlaşdırılmasının müxtəlif yolları var.

3.4 Bəzi proqramlar üçün iqtisadi, ətraf mühit və sosial məqsədlər arasında arasında seçim edilərkən balansın saxlanılması və ya kompromisə gedilməsi artıq hökumət tərəfindən müəyyən edilmiş məqsəd və hədəflərdə nəzərdə tutulmuş ola bilər. Bu hallarda, hökumətlər hansı məqsədlər baxımından güzəştə gediləcəyi baxımından qərar qəbul etməli olacaqlar. Məsələn:

- Avtomobil emissiyaları – hökumətin istehsalçılar qarşısında qoyduğu hədəflər, sənaye məqsədləri, avtomobil istifadəçilərinin iqtisadi xərcləri və səyahət

xərclərinin artması ilə cəmiyyətə təsirləri ilə tarazlaşdırılmış ətraf mühitə dair məqsədlərə çatmaq üçün lazım olanların siyasi mühakiməsini əks etdirəcəkdir.

- Balıqçılıq kvotaları - müəyyən edilmiş kvotalar, yerli balıqçı icmalarına iqtisadi və sosial təsirləri nəzərə alaraq uzunmüddətli perspektivdə davamlı ola biləcək balıq ovu səviyyəsi ilə bağlı siyasətçilər tərəfindən verilən qərarları və mövcud ehtiyatların davamlılığı ilə bağlı elmi tövsiyələri əks etdirəcəkdir

| |
|---|
| Cədvəl 13: ABŞ-da ziddiyyətli dayanıqlı inkişaf məqsədləri<br><br>Birləşmiş Ştatlarda çirklənmə nəzarəti əsasən borulardan və digər mənbələrindən axıdılan çirkabların idarə olunmasına yönəlib. Bu səylərin nəticəsində su keyfiyyəti ilə əlaqədar həll edilməmiş problemlərin böyük payı fermalar və otlaq sahələrindən – “qeyri-mənbə”lərdən axıdılan çirkabla əlaqəlidir.<br><br>Bununla belə, bu çirklənmə mənbələri ilə əlaqədar problemin aradan qaldırılması, indiyə qədər ətraf mühitin çirklənməsinə nəzarət etmələri tələb edilməyən əhali qruplarına əhəmiyyətli tənzimləmə xərcləri tətbiq edilməsini tələb edə bilər. Bu, əhəmiyyətli sosial və iqtisadi təsirlərə səbəb olacaq və ədalətlilik məsələlərini gündəmə gətirəcəkdir.<br><br>Dövlət Hesabatlılıq Ofisinin 2000-ci il mart tarixli "Suyun Keyfiyyəti: Ətraf Mühitin Müdafiəsi Agentliyinin və hökumətin əsassız və natamam məlumatlarla məhdudlaşdırlan əsas qərarları" adlı hesabatı, bu tip çirkləndiricilərlə bağlı tənzimləyici qərarlar qəbul etmək üçün lazım olan məlumatların əksəriyyətinin əhəmiyyətini sual altında qoymuş və bununla da məsələ daha da qəlizləşmişdir. |

3.5 Digər proqramlar üçün mühakimələr aidiyyəti qurumlar tərəfindən müntəzəm olaraq verilə bilər, məsələn:

- Sənaye müəssisələrinin çirkləndirmə mənbələrinin tənzimlənməsi üzrə təftiş qurumları müfəttişlərdən ətraf mühitə buraxılan emissiyaların təsiri ilə sənayedə çirklənməni azaldan qurğuların quraşdırılması ilə bağlı ödəmə qabiliyyətinitarazlaşdırmağı tələb edə bilər.

- Yol tikintisi kimi əsas layihələrin çox vaxt ciddi iqtisadi, ekoloji və sosial təsirləri vardır ki, bunları diqqətlə nəzərdən keçirmək lazımdır. Dövlət məmurları qərar qəbul edərkən bütün əlaqədar təsirlərin düzgün qiymətləndirilməsini və nəzərə alınmasını təmin etməlidirlər. Bu cür mühakimə edilərkən və kompramislərə gedilərklən məmurlar bir aspekti digəri ilə müqayisə etmək üçün daha mürəkkəb və ya sadə üsullardan istifadə edə bilərlər. Bu barədə Cədvəl 18-də daha ətraflı məlumat verilib.

## PROQRAM SƏVİYYƏSİNDƏ AUDİT ÜÇÜN İMKANLAR

Proqramların auditinin keçirilməsinin əhatə dairəsiböyükdür; bu sənəd auditorlar üçün bəzi əsas məsələlərə diqqət yönəldir.

3.6 Proqramların auditinin əhatə dairəsi olduqca genişdir. Bu sənəd bütün seçimləri əhatə edə bilməz; Cədvəl 2 dayanıqlı inkişaf perspektivindən nəzərdən keçirilə biləcək bir sıra proqramı əks etdirir. Bununla belə, dayanıqlı inkişaf problemlərinə dair auditlərin seçilməsi, əhatə dairəsinin müəyyən edilməsi və tərtibatı zamanı nəzərə alınmalı olan bəzi məsələləri qeyd etmək mümkündür.

## AUDİT ÜÇÜN MÖVZULARIN SEÇİLMƏSİ

3.7 Keçiriləcək auditlərin seçilməsi AAQ-ın geniş audit proqramını seçməsi üçün qəbul edilən yanaşmasından asılıdır. Bir çox hallarda, dayanıqlı inkişaf üzrə auditlər AAQ-ın proqramı və prioritetlərində yer almaq üçün digər mövzular üzrə ideyalarla rəqabət içərisindəolacaqdır. Bu səbəbdən, araşdırma mövzusu yoxlanıla bilən olmalı (auditi keçirilə bilən), əlavə dəyər yarada bilməli, əhəmiyyətli məsələlərin öhdəsindən gələ bilməli və mövcud resurslar çərçivəsində vaxtında başa çatdırılmalıdır.

3.8 Mövzunun əhəmiyyəti yalnız pul dəyərini deyil, eyni zamanda proqram təsirinin əhəmiyyətliliyini əks etdirməlidir. Məsələn, çirklənmə əleyhinə siyasətə daha çox iqtisadi stimullar, tədqiqat və təlim təşəbbüsləri, dövlət təhsil kompaniyaları kimi fərqli siyasət alətləri, həmçinin lisenziyalaşdırma, yoxlama və cinayətkarların məsuliyyətə cəlb edilməsi üçün qurumlar daxil ola bilər. Siyasət üçün böyük məbləğdə dövlət vəsaiti cəlb edilməsə də, onun təsiri və ya uğursuzluğunun nəticəsi çox böyük ola bilər.

3.9 Bəzi auditlər üçün audit olunacaq sahələrin vacib olanlarını müəyyən etmək məqsədi ilə resursların qorunması və davamlı istifadəsində əhəmiyyətli payı olan

təşkilatların müəyyən edilməsi zəruri ola bilər. Peru AAQ-ı bunun üçün təbii resurslar üzrə auditlərdə bu sahədə fəaliyyət göstərən bütün dövlət şirkətlərinin funksiya və fəaliyyətlərinə dair matrisini hazırlamış və bu matrisdən istifadə etməklə daha ətraflı qiymətləndirməyə ehtiyac olan qurumları seçmişdir.

AAQ seçici olmalı və əsas proqramlara diqqət yetirməlidir.

3.10 AAQ-lar tərəfindən qəbul edilmiş yanaşmanın səmərəlilik auditi mövzularının seçilməsi proseslərindən fərqlənməsinə ehtiyac yoxdur. Bununla belə, AAQ-lar mövzuları müəyyən edərkən ayrı-ayrı proqramlar ilə hökumətin ümumi strategiyası arasındakı əlaqələri nəzərdən keçirə bilər. Veriləcək səciyyəvi suallar aşağıda göstərilmişdir. Bu suallar yoxlamanın əsasını təşkil etmək məqsədi daşımasa da, lakin ayrı-ayrı siyasətlər və proqramlardan gözlənilən töhfəni və potensial zəifliklərin harada biləcəyini anlamaqda AAQ-lara kömək ola bilər.

| Audit üçün proqramların seçilməsi |
| --- |
| • Strateji məqsədlər ilə xüsusi siyasət və proqramlar arasında əlaqə varmı?<br>• Hansı siyasətlər strateji məqsədlərə nail olunmasına xidmət edir və bunların həyata keçirilməsində kim məsuliyyət daşıyır?<br>• Proqram qoyulmuş məqsədlərə cavab verirmi?<br>• Hökumət öz qanunlarına riayət edirmi və imzaladığı hər hansı bir beynəlxalq razılaşmaya əsasən üzərinə düşən vəzifələri yerinə yetirirmi? |

Ətraf muhit baxımından audit fəaliyyətinin  INTOSAI təlimatı mövcuddur

3.11 INTOSAI-ın Ətraf Mühitin Auditi üzrə İşçi Qrupu bu sahədə əlavə təlimata ehtiyacı olan AAQ-lar üçün “Ətraf Mühitlə Fəaliyyətlərin Auditinin aparılmasına dair Təlimat" adlı sənəd hazırlamışdır. Sənədin böyük bir hissəsi dayanıqlı inkişaf konsepsiyasına tətbiq edilə bilər.

3.12 Geniş mənada AAQ-lar aşağıdakı məvzuları nəzərdən keçirə bilər

- Dövlət müəssisələrində səmərəli enerji sərfiyyatı, planlı satınalmalar, su və digər təbii resurslardan istifadə kimi ekoloji təsərrüfat məsələləri. Kommunal xidmətlərin idarə olunmasına dair Cədvəl üçün Cədvəl 14-ə baxın.

- Gündəlik qərar qəbul etmə prosesinə ətraf mühit faktorlarını daxil etmək üçün istifadə olunan metodların effektivliyi də daxil olmaqla, daşqından müdafiə sistemlərinin qurulması, çayların idarə edilməsi və çirklənməyə nəzarət edilməsi kimi ekoloji proqramlar.
- Ətraf mühit baxımından daha geniş iqtisadi və sosial məqsədlərə xidmət edən proqramlar, məsələn, yerli iqtisadi tənəzzülün qarşısının alınması, istifadəsiz və ya yararsız torpaqların yenidən istifadəsi və ya yerli icmaların saxlanılması. Nümunə üçün Cədvəl 15 -ə baxın.

| |
|---|
| Cədvəl 14: Birləşmiş Krallıq Müdafiə Nazirliyi – Kommunal xidmətlərin idarə edilməsi<br><br>Birləşmiş Krallığın Müdafiə Nazirliyi elektrik, qaz, neft, su və kanalizasiya üçün ildə təxminən 180 milyon funt sterlinq xərcləyir. Milli Audit Ofisi 1997-ci ildə kommunal xidmətlərin daha yaxşı idarə edilməsi yolu ilə qənaət imkanlarını araşdıran bir hesabat nəşr etdi.<br><br>Hesabatda enerjiyə qənaət etmək yolları müəyyən edilmişdir. Bunlardan bəziləri termostatlara düzəliş edilməsi və ya heyətin enerjiyə qənaət sahəsində məlumatlandırılması kimi az və ya heç bir xərc tələb etməyən sadə tədbirlər idi. Bəziləri qoyulan investisiyanı bir il ərzində qaytara biləcək tədbirlər (məsələn, termostatların, taymerlərin və nəzarətin quraşdırılması) idi. Digərləri isə investisiya tələb etsə üç il ərzində qənaətlə nəticələnəcəkdir (məsələn, enerjiyə qənaət edən işıq qurğuları). |

| |
|---|
| Cədvəl 15: Birləşmiş Krallıqda torpaqların meliorasiyası<br><br>1999-cu ilin aprel ayına qədər "İngilis Tərəfdaşlığı" kimi tanınan Birləşmiş Krallıq Hökumət agentliyi, yararsız, boş və istifadəsiz torpaqların və binaların yenidən istifadəyə verilməsi üzrə məsul idi. Agentliyin əsas fəaliyyəti, digər dövlət və özəl sektor təşkilatları ilə əməkdaşlıq edərək fiziki bərpa layihələrini dəstəkləmək üçün maliyyə mənbələri təmin etmək idi. Bu səbəbdən Agentliyin ehtiyac duyulan |

sahələrdə davamlı iqtisadi, ətraf mühit və sosial bərpa işlərinə nail olmaqda əhəmiyyətli bir rol oynayacağı gözlənilirdi.

1999-cu ildə Milli Audit Ofisi İngilis Tərəfdaşlığının altı coğrafi bölgədə yerli bərpa işlərinə göstərmiş olduğu dəstək üzrə hesabat dərc etmişdir. Tədqiqat qrupu regenerasiya tədbirlərinin təşviq edilməsində effektivliyin müəyyən edilməsinə yardımçı olmaq üçün sahə ziyarətləri və məlumatların təhlili əsasında Agentliyin və yerli səviyyədə tərəfdaşların fikirlərini öyrənmişdir.

Hesabatda daha aydın məqsəd və hədəflərin müəyyən edilməsi, sahələrin bərpası tədbirlərinin effektivliyinin uzunmüddətli qiymətləndirilməsivə nəticələrin qeydə alınması üçün daha ciddi sistemlərin qurulması kimi tədbirlərə zərurətinin olduğu müəyyən edilmişdir.

3.13 Yuxarıda qeyd edilən təlimatdan əlavə INTOSAI-ın Ətraf Mühitin Auditi üzrə İşçi Qrupunun internet səhifəsində (www.environmental-auditing.org) dünya AAQ-larının ətraf mühitə dair mövzular üzrə bir çox audit hesabatlarından ibarət məlumat bazası mövcuddur.

## DAYANIQLI İNKİŞAF AUDİTLƏRİNİN ƏHATƏ DAİRƏSİ VƏ TƏRTİB EDİLMƏSİ

Dayanıqlı inkişaf üzrə auditin keçirilməsi auditor üçün bir sıra çətinliklər yaradır.

3.14 Əksər proqramlar üçün AAQ-lar əhatə dairəsinin müəyyən olunması və araşdırmanın tərtib olunmasına hər hansı bir səmərəlilik auditində olduğu kimi yanaşacaqlar. Buna baxmayaraq, dayanıqlı inkişaf auditor üçün bir sıra xüsusi çətinliklər yarada bilər. Bu hissədə bu sahədə aparılan auditlər üçün xüsusi əhəmiyyət kəsb edə biləcək məsələlərdən bəhs edilir.

Dayanıqlı inkişafa töhfə verən proqramlar adətən bir çox qurumun birgə fəaliyyətini əhatə edir.

3.15 Dayanıqlı inkişaf məqsədlərinə töhfə verən proqramlarının həyata keçirilməsi bir çox dövlət və özəl sektor orqanlarının koordinasiya edilmiş fəaliyyətini əhatə edir. AAQ-lar hər hansı bir araşdırmanın əhatə dairəsini müəyyən etməzdən əvvəl bu qarşılıqlı əlaqələr barədə geniş şəkildə məlumatlı olmalıdırlar. Cədvəl 16, məsələn, çay sisteminin dayanıqlı idarə edilməsinə təsir göstərə biləcək problemlərin əhatə dairəsini və bu sahə üzrə təşkilatların müxtəlifliyini və AAQ qarşısında duran vəzifənin miqyasını göstərir.

## Cədvəl 16: Dayanıqlı inkişafa nail olmaq bir çox qurumların koordinasiyalı fəaliyyətini tələb edə bilər




Tək bir çay sisteminin davamlı idarə edilməsi bir çox təşkilatın müxtəlif məsələlərdə koordinasiyalı şəkildə işləməsini tələb edir.

Bir çay sisteminin dayanıqlı idarə edilməsi bir çox qurumun çoxsaylı məsələlər ətrafında birgə fəaliyyətini tələb edir.

3.16 AAQ-lar araşdırmanın əhatə dairəsi barədə qərar verərkən, bu təşkilatların bir çoxunun fəaliyyətini nəzərdən keçirib-keçirməmək barədə qərar verməlidirlər. Bu cür auditlərin əhatə dairəsi düzgün müəyyən edildikdə daha faydalı nəticələrin əldə edilməsinə (fayda yaratmağa) imkan verir. Bununla belə, AAQ-lar bu iş üçün lazım olan bacarıq və resurslara malik olub-olmadıqlarını və digər auditorların əməkdaşlıq edib-etməyəcəklərini nəzərdən keçirməlidirlər. Bəzi hallarda AAQ fəaliyyəti digər ölkələrlə müqayisə etmək istəyə bilər.

Cədvəl 17: Dayanıqlı inkişaf üzrə araşdırmaların əhatə dairəsinin müəyyən edilməsi

Dayanıqlı inkişaf üzrə araşdırmanın əhatə darirəsini müəyyən edərkən AAQ aşağıdakılaradair qərar verə bilər:

- Yalnız bir təşkilatın fəaliyyətini nəzərdən keçirmək. Məsələn, auditlər dövlət orqanlarında enerjidən səmərəli istifadə, planlı (rutin) satınalmaların keçirilməsi, su və digər təbii ehtiyatların istifadəsi kimi ekoloji (yaşıl) təsərrüfat işlərinə baxa bilər.
- Regional və təşkilati sərhədlərdə çalışan bir sıra təşkilatları nəzərdən keçirmək. Buna nail olmaq üçün AAQ-lar məsələn, daşqından qorunma, suyun keyfiyyətinin tənzimlənməsi və çirklənməyə nəzarətə dair auditlərin keçirilməsində dövlət və ya regional səviyyədə qanunla müəyyən edilmiş digər auditorlarla işləməli ola bilər.
- Fəaliyyət, təcrübələri digər ölkələrin və özəl sektorun təcrübələri ilə müqayisə etmək. AAQ-lar digər AAQ-larla koordinasiya edilmiş və ya birgə audit keçirə bilərlər. INTOSAI-ın Ətraf Mühit Auditi üzrə İşçi Qrupu birgə və ya koordinasiya edilmiş auditlərin keçirilməsinə dair "AAQ-lar ətraf mühit üzrə beynəlxalq sazişlərinin auditində necə əməkdaşlıq edə bilər" adlı buklet hazırlamışdır.

## METODOLOJİ ÇƏTİNLİKLƏR

AAQ-ların iqtisadi, ətraf mühit və sosial məqsədlər arasında seçim edilərkən balansın saxlanılması və ya kompromisə gedilməsi (bundan sonra balans/güzəşt) məsələsi barədə hansı səviyyədə araşdırma aparacaqları qərarı.

3.17 Dayanıqlı inkişaf konsepsiyası AAQ-ları yeni metodoloji və analitik çətinliklərlə qarşı-qarşıya qoyur. Gələcəkdə araşdırma planının hazırlanmasında əsas qərar AAQ-ların iqtisadi, ətraf mühit və sosial məqsədlər arasında seçim edilərkən balans/güzəşt məsələsi barədə axtarışında nə qədər dərin təhlil edə bilməsi və ya etməli olduğu olacaqdır.

3.18 Bu cür auditlər keçirməyi düşünən AAQ-ların diqqət yetirməli olduğu məqamlar:

- İqtisadi, ətraf mühit və sosial məsələlər arasındakı əlaqələri təhlil edilə bilərmi;
- AAQ öz mandatından kənara çıxaraq siyasət məqsədlərinin doğruluğunu (faydalı olduğunu) sorğulaya bilərmi;
- Daha geniş miqyaslı araşdırmanın öhdəsindən gələcək bilik və təcrübəsi varmı.

Bəzi sahələrdə əlaqələri nəzərdən keçirmək mümkünsüzvə mürəkkəb metodologiyası ola bilər.

3.19 AAQ-lar asanlıqla qiymətləndirilə bilməyən və təhlil edilə bilməyən məsələləri araşdırmaqdan çəkinməlidirlər. Bu, AAQ-ların mübahisəli siyasi müzakirələrə cəlb olunmasına səbəb ola bilər. Dayanıqlı inkişafın əsasını təşkil edən iqtisadi, ətraf mühit və sosial amillərin kompleks qarşılıqlı əlaqəsi, AAQ-ın bu üç faktor arasındakı güzəşti və ya balansı tam araşdırmasına imkan verəcək qədər asanlıqla təhlil edilə bilməz. Maliyyə qərarlarını asandlaşdıran fayda-maya dəyəri təhlilindən ilə fərqli olaraq, bu balans/güzəşt məsələsini qiymətləndirmək üçün oxşar bir metod yoxdur. Buna görə də hökumət bir çox sahələrdə bu balans/güzəşt məsələsinə dair qərarları siyasi əsasda qəbul edilir. Bundan əlavə, hökumət təfərrüatlı və ya texniki qiymətləndirmələrdən istifadə etməli ola bilər; qiymətləndirmə həmçinin əhəmiyyətli dərəcədə subyektiv ola bilər (Cədvəl 18). AAQ bu cür texniki və ya subyektiv mühakimələrdən istifadə edilməsinin uyğun olmamasına qərar verə bilər. Əvəzində AAQ hökumətin

təsdiq etdiyi hədəf və gözləntilər və ya onun əldə etməyə çalışdığı tarazlıq əsasında audit apara bilər.

| |
|---|
| Cədvəl 18: İqtisadi, ətraf mühit və sosial problemlərin uzlaşdırılması üçün analitik üsullar<br>Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi - siyasət, plan və ya fəaliyyətin nəticələrinin ətraf mühitə təsirini qiymətləndirmək üçün yoldur. Bu qiymətləndirmənin qərar qəbul etmədən əvvəl müvafiq mərhələdə aparılması ətraf mühit məsələlərinin iqtisadi və sosial məsələlərlə eyni səviyyədə olmasını əks etdirir.<br><br>Sosial Xərclərin Faydalılıq Təhlili - təklif olunan layihənin xərc və faydalılığının (baza ili əsasında diskontlaşdırılmış) rəsmiləşdirilmiş müqayisəsi. Nəzəri cəhətdən ekoloji, sosial xərcləri və faydanı pul dəyəri ifadəsində bir cədvəldə əks etdirmək mümkün olsa da, praktikada hər kəs tərəfindən qəbul ediləcək obyektiv qiymətləndirmələrin əldə edilməsi çətin ola bilər.<br><br>Birdən çox hesabın təhlili - sosial və ətraf mühitə dair mülahizələrin planlaşdırmaya daxil etmək üçün üsul. Bu üsul iqtisadi, sosial, ətraf mühitin xərc və faydalılığının pul ilə ifadəsinin yerinə, problemin fərqli tərəflərini ayrı-ayrılıqda və birlikdə nəzərdən keçirməyi əhatə edir.<br><br>Həyat dövrü xərcləri - Dövlət orqanları qərar qəbul etməyə kömək etmək üçün həyat dövrü xərclərindən istifadə edə bilərlər. Həyat dövrü xərcləri adından da göründüyü kimi təmir və əldən çıxarma xərcləri də daxil olmaqla bir məhsulun alınması ilə əlaqədar bütün xərcləri əhatə edir. Bəzi fəaliyyətlər, məsələn əhəmiyyətli çirklənməyə səbəb olan sənaye prosesləri üçün təmizləmə xərcləri bu işə davam etmək qərarına əhəmiyyətli dərəcədə təsir edə bilər.<br><br>Dayanıqlı Norma Dəyərləri (göstəriciləri)- bunlar ətraf mühit, iqtisadi və sosial nəticələr üzrə mütləq məhdudiyyətlər qoyan, elmi cəhətdən müəyyən edilmiş |

və ümumilikdə qəbul edilmiş dəyərlərdir, məsələn, dayanıqlı su hasilatı səviyyəsi (yəni təchizat və keyfiyyətin davamlılığını təmin edən).

Həddindən artıq xərc tələb etməyən ən yaxşı texnika (BATNEEC) - bu termin çirkləndirici maddələrin emissiyasını həddindən artıq xərc tələb etmədən bir mühitlə (hava, su, torpaq) məhdudlaşdırmaq üçün çox şey edən fiziki prosesi və ya texnikanı (adətən sənaye) müəyyən edir. Onun istifadəsi qaydalarla təmin edilə bilər və məmurlar tərəfindən, məsələn, sənayedən çirklənmənin tənzimlənməsində iqtisadi və ekoloji xərclər arasında balans/güzəşt məsələsinə dair qərarlarını istiqamətləndirmək üçün istifadə edilə bilər.

Ətraf Mühitə dair Ən Praktik Seçim - çirkləndiricilərin birdən çox mühitə buraxılması və hər biri (hava, su, torpaq) üçün BATNEEC-lər nəzərə alınmaqla mümkün fəaliyyətlərdən ən az zərər verən və ya ən faydalı ekoloji seçimin müəyyən edildiyi bir prosesdir.

Lakin digər sahələrdə əlaqələri nəzərdən keçirmək yeni fikirlər verə bilər.

3.20 Bununla belə bu şərtlər nəzərə alınmaqla, balans/güzəşt məsələsinin yoxlanmasının bu araşdırmadan əldə ediləcək əlavə dəyər baxımından zəruri olması mümkündür. Məsələn, çirklənmənin tənzimlənməsi, balıq resurslarının qorunması və meşə təsərrüfatının idarə edilməsi kimi mövzuların araşdırılması dayanıqlı inkişaf üçün potensial olaraq təhlil edilə bilən vacib məsələləri ortaya qoyur. Taxta yığımı əsasında fərqli məhsul yığma strategiyalarının aşağıdakılara təsirini modelləşdirmək mümkündür:

- ağac növlərinin və biomüxtəlifliyin balansı;
- boş qalan torpaqların nisbəti; və
- gəlir axınlarına və dolayısı ilə məşğulluğa təsir.

| Cədvəl 19: Şimal-şərqi Avropada havanın çirklənməsi |
| --- |
| Hava çirkliliyinin qarşısının alınmasına dair milli proqramlarının qarşılıqlı asılılığını nəzərə alaraq, Çexiya, Litva və Polşa AAQ-ları 1999-cu ildə bu sahədə paralel auditlərin keçirilməsinə başladı.<br>Auditlərin keçirilməsində əsas məqsəd milli hökumətlərin üzv olduqları müxtəlif ikitərəfli saziş və beynəlxalq konvensiyalara əməl edib-etməmələrini müəyyən etmək idi. Auditlər havanın çirklənməsinin qarşısını almaq üçün nəzərdədə tutulan proqramların həyata keçirilməsində ətraf mühitin mühafizəsi fondlarından və digər yardım növlərindən istifadəyə diqqət yönəltmişdir. Başqa bir məqsəd, icazə verilən tullantı miqdarını keçməklə əlaqədar verilən cərimələrin hesablanmasının və tətbiqinin uyğunluğunu yoxlamaq idi. Yoxlamaların nəticələrinə dair ümumi hesabat 2000-ci ildə tərtib edilmişdir. |

3.21 Dayanıqlı inkişafın geniş perspektivinin bir mövzuya tətbiq etmək AAQ-ın bir araşdırma ilə sosial, iqtisadi və ətraf mühit məsələlər arasındakı bütün əlaqələri yoxlaması demək deyil. Belə geniş sahənin araşdırılması üçün çox güman bir çox AAQ-ın yetəri qədər təhlil bacarığı və resursu yoxdur. Bu cür auditlərin keçirilməsi demək olar ki, bütün AAQ-lar ciddi analitik və metodoloji çətinliklər yaradır. Bununla belə, bəzi AAQ-lar əsasən iqtisadi məsələlərə yönəlmiş araşdırmaya ətraf mühitlə bağlı hissə və ya sosial bir ölçü əlavə edilə bilər. Nəticə daha dərin fikirləri əhatə edən daha əsaslı hesabatların verilməsi ola bilər.

| Cədvəl 20: Cənubi Afrikada dayanıqlı inkişafa nail olmaq üçün balans/güzəşt məsələsi |
| --- |
| Cənubi Afrika AAQ-ı şirin su qaynaqları və su təchizatı sahəsində ətraf mühit auditi həyata keçirir. Bu, bir çox insanın evdə istifadə edilən suyu birbaşa ətraf mühitdən götürdüyü bir ölkədə sosial və ekoloji problemlərin əlaqəli olmasına nümunədir. Bu müəyyən vaxt keçdikdən sonra sosial və ekoloji məsələlərin inteqrasiyasına dair siyasət mövzusunda mübahisələrə səbəb olmuş və mübahisə edən tərəflərdən birinin auditə ciddi müqavimət göstərməsi ilə nəticələnmişdir. Bu, dayanıqlı inkişafa dair auditin, siyasi qərarlara birbaşa şərh vermədən, siyasi məsələlərin təsirinə məruz qala biləcəyini və hətta təsir edə biləcəyini göstərdi. |

Cədvəl 21: Peruda ətraf mühit auditi və milli irs

Peru AAQ-ı son zamanlarda ətraf mühit və milli irs sahəsində bir çox audit keçirmişdi. Bunlara Manu Milli Parkı, Titikaka gölü hövzəsi və Maçupikçu tarixi ziyarətgah ilə əlaqədar keçirilmiş auditlər daxildir. Onlar dayanıqlı inkişaf konsepsiyasını dayanıqlı inkişaf və mədəni irs arasında yeni əlaqələr quracaq şəkildə tətbiq edirlər. Titikaka Gölü hövzəsinin auditi təbii sərvətlərin qorunması və davamlı istifadəsinin təsirlərini bəzi Peru xalqlarına aid mədəni irs nümunələri ilə əlaqələndirmişdi.

## NƏTİCƏ

3.22 Dayanıqlı inkişafa dair proqramların auditi üçün bir çox imkan var. Çətinliklər sosial, iqtisadi və ətraf mühitə dair məqsədlərin bir-biri ilə mürəkkəb şəkildə əlaqəli olması və təsirə məruz qalmış təşkilatların müxtəlifliyi səbəbindən yaranır. İstifadə edilən bəzi metodların nisbətən yeni olması və subyektivliyi səbəbindən metodoloji çətinliklər də yarana bilər. Bununla belə, verilmiş nümunələr göstərir ki, dayanıqlı inkişaf məsələləri üzrə məqsədyönlü auditlərin planlaşdırılması mümkündür. Ən vacib məqam odur ki, AAQ-lar bir çox mövzunu əhatə edən və ya həyata keçirilməsi çətin olan təhlil üsulları tələb edən auditlərin keçirilməsini planlaşdırmamalıdır.

# 4-cü hissə

## 4. AAQ-IN POTENSİALININ ARTIRILMASI

Bu hissədə, AAQ-ların bu sahədə potensialını artıra biləcək altı addım nəzərdən keçiriləcəkdir.

4.1 Dayanıqlı inkişafın auditi AAQ-lar üçün yeni konseptual və metodoloji çətinliklər yarada bilər. Bu hissədə[2] müzakirə edildiyi kimi bir çox AAQ artıq ətraf mühit proqramlarının auditini keçirmişdir və dayanıqlı inkişaf sahəsinə doğru addımlayır. Növbəti illərdə təşkilat sərhədlərini aşan məsələlər və ya iqtisadi, ətraf mühit və sosial məsələlər arasındakı əlaqələrin daha çox araşdırılması ilə əlaqədar çətinliklər yarana bilər. Bu hissədə, AAQ-ların bu sahədə bacarıqlarını inkişaf etdirmək üçün ata biləcəkləri addımları nəzərdən keçiririk.

4.2 Cədvəl 22-də ətraf mühitə və dayanıqlı inkişafa dair audit keçirməyə hazırlaşan və bu sahədə potensialını artırmaq istəyən AAQ-ın ata biləcəyi altı addımı təsvir edir. Burada əsas məqam AAQ-ın düzgün tarazlığı saxlamasıdır. AAQ-ın bu hissədə təsvir edilən tədrici yanaşmanı qəbul etməsi vacibdir. Bu sahədə inkişafın hər bir mərhələsində işə başlamaq və audit keçirmək də vacib məsələdir. Qabaqcıl təcrübənin inkişaf etdirilməsi və tətbiqinin ən yaxşı yolu real audit təcrübəsidir.

[2] Sənədin bu hissəsi Kanada Baş Auditor Ofisi tərəfindən 1999 -cu ilin oktyabr ayında Birlik Auditorları Baş Konfransı üçün hazırlanmış sənədlərdən geniş istifadə edir.

**Cədvəl 22: Ətraf mühit və dayanıqlı inkişaf auditləri keçirən AAQ-lar üçün əsas addımlar**




AAQ-lar dayanıqlı inkişafa dair auditləri aparmaq üçün qabiliyyətlərini tədricən inkişaf etdirməlidirlər.

## 1-Cİ ADDIM: MANDATIN MÜƏYYƏN EDİLMƏSİ

Əksər hallarda, AAQ-lar dayanıqlı inkişafın bir sıra aspektlərini araşdırmaq üçün kifayət qədər səlahiyyətə malik olur.

4.3 AAQ dayanıqlı inkişaf sahəsində audit aparmaq səlahiyyətinə malik olub-olmadığını müəyyən etmək üçün öz mandatını yenidən nəzərdən keçirməlidir. Əksər hallarda qənaətlilik, səmərəlilik və nəticəliliyi araşdırmaq səlahiyyəti olan AAQ-lar dayanıqlı inkişafın əksər aspektlərini araşdırmaq üçün kifayət qədər səlahiyyətə malikdir.

4.4 Əksər AAQ-lar üçün başlanğıc nöqtə dayanıqlı inkişaf haqqında aydın bir təsəvvür yaratmaq və əgər varsa öz hökumətinin dayanıqlı inkişafla bağlı mövqeyini nəzərdən keçirmək olacaq. Əksər AAQ-lar üçün hökumətin dayanıqlı inkişaf üzrə müəyyən etdiyi məqsədlər fəaliyyətin qiymətləndirilməsi üçün əsas (meyar) olacaqdır.

# 2-Cİ ADDIM: STRATEGİYANIN HAZIRLANMASI

Növbəti mərhələ dayanıqlı inkişaf gündəliyinə əsasən strategiyanın hazırlanmasıdır.

4.5 Növbəti mərhələ dayanıqlı inkişaf gündəliyinə əsasən strategiyanın hazırlanmasıdır. Bu zaman AAQ özünə aşağıdakı sualları verə bilər:

- Dayanıqlı inkişaf auditinin məqsədləri nələrdir?
- Auditi keçirilməli olan əsas dayanıqlı inkişaf sahələri hansılardır?
- Dayanıqlı inkişaf auditlərinə hansı məsələlər uyğundur?
- Bu məsələlərin hər biri üzrə audit yanaşması necə olmalıdır?
- AAQ-da təşkilati dəyişikliyə ehtiyac varmı?
- AAQ-ın bu sahədə müvafiq bacarığı varmı və ya bunun üçün kənar dəstəyə müraciət etməyə, bu sahədə bacarıqlarını daxildə öz təcrübəsi əsasında inkişaf etdirməyə ehtiyac varmı?
- Qanunla müəyyən olunmuş digər auditorlar ilə hansı əlaqələr qurulmalıdır?

4.6 Dayanıqlı inkişaf məsələlərinə diqqət yetirilməsi məsələsi AAQ-lardan asılı olaraq dəyişir. Hər bir AAQ-ın qəbul edəcəyi strategiyalar qanunverici orqanda və hökumət səviyyəsində mövzuya əhəmiyyət verilməsi də daxil olmaqla, AAQ-ın təcrübəsi, bu iş üçün mövcud olan resurslarından asılıdır.

| |
|---|
| Cədvəl 23: İordaniyada qurulmuş məhsul idarəetmə sistemləri<br>İordaniya yeraltı suların və torpağın pestisidlərlə (zərərvericilərlə kimyəvi mübarizə vasitəsi) çirklənməsindən irəli gələn böyük problemlərlə üzləşmişdir. Pestisidlər kənd təsərrüfatı işçiləri və istehlakçıların sağlamlığına ciddi təhlükə yaradırdı. Buna cavab olaraq, İordaniya Hökuməti 1998-ci ildə məhsul idarəetmə sisteminin yeni yollarını təşviq etmək üçün layihə hazırladı. Məqsəd, fermerlərə xərclərini azaltmaqda yardımçı olmaq, istehlakçılar üçün riskləri azaltmaq və İordaniyanın ərzaq ixracatının pestisid artıqlığı baxımından beynəlxalq standartlara uyğunluğunu təmin etmək idi.<br><br>İordaniya AAQ-ı proqramın nəticəsi olaraq məhsullarını idarə etmək üçün yeni üsullar tətbiq edən fermerlərin sayında əhəmiyyətli artımın olduğunu təsbit etdi. Daha az pestisid istifadə edilmiş, fermerlər əhəmiyyətli dərəcədə qənaət etmişdilər. |

İordaniyanın bu şəkildə istehsal olunan kənd təsərrüfatı məhsullarının ümumi payı da kəskin şəkildə artmışdır.

4.7 AAQ-lar adi hökumət proqramlarından audit mövzusu seçərək dayanıqlı inkişafa dair auditləri əsas proqramlarına daxil edib birgə audit apara bilərlər. Digər hallarda, AAQ-lar bu sahədə xüsusi bacarığa malik xüsusi qruplar yarada bilərlər. Kanadada qanunverici orqan Baş Auditor Ofisi daxilində qayanıqlı inkişaf məsələləri ilə bağlı Kanada Parlamentinə hesabat vermək öhdəliyi olan Dayanıqlı İnkişaf və Ətraf Mühit üzrə Komissar təyin etmişdir (nümunə 24).

Cədvəl 24: Ətraf mühit və dayanıqlı inkişaf üzrə komissar, Kanada

Kanada Parlamenti 1996-cı ildə Ətraf mühit və dayanıqlı inkişaf üzrə komissar vəzifəsi yaratmışdır.

Qanuna əsasən, Komissar ətraf mühitlə bağlı məsələlər və dayanıqlı inkişafa dair digər aspektlər barədə Parlamentə Baş Auditor adından illik hesabat təqdim etməlidir. Həmin qanunun bəzi hissələri Əlavə A-da göstərilib. Komissara bu işdə Baş Auditor Ofisində fəaliyyət göstərən xüsusi qrup kömək edir.

## 3-CÜ ADDIM: AAQ NƏZDİNDƏ POTENSİALIN VƏ BACARIQLARIN YARADILMASI

AAQ-lar ümumi strategiyalarına və mövcud təcrübə və resurslarına uyğun olan audit yanaşması qəbul etməlidirlər.

4.8 AAQ-lar ümumi strategiyalarına və mövcud təcrübə və resurslarına uyğun olan audit yanaşması qəbul etməlidirlər. Bu təlimatda qeyd edildiyi kimi, dayanıqlı inkişaf məsələləri üzrə auditlər analitik və metodoloji sualların çoxluğundan uğursuz ola bilər (Cədvəl 25).

**Cədvəl 25: Dayanıqlı inkişaf auditlərinin proqramına fərqli növdə və miqyasda auditlər daxil ola bilər.**




AAQ-ların həm əhatə olunan predmetin mahiyyəti, həm də araşdırmanın əhatə dairəsi baxımından geniş seçim imkanı var.

4.9 AAQ-lar daha mürəkkəb məsələlərin öhdəsindən gəldikcə dövlətin fəaliyyətininnə dərəcədə effektiv olmasını yoxlamaq üçün daha çox cəhd göstərilməlidir. Bu cür hallarda, AAQ-lar səmərəlilik auditlərinin keçirilməsində istifadə edilən mövcud metodologiyaların məqsədəuyğun olub-olmamasını sorğulamalıdır. İxtisaslı kadrların cəlb edilməsi yerli şəraitdən asılı olaraq mütəxəssislərin birbaşa işə götürülməsi və ya kənar məsləhətçilərin cəlb edilməsi ilə mümkündür. Bundan əlavə, AAQ təlim proqramını yenidən nəzərdən keçirə bilər. Ölkə daxilində və beynəlxalq səviyyədə digər auditorlar (qanunla müəyyən olunmuş) ilə əlaqə saxlamaq AAQ-ın dayanıqlı inkişafla bağlı daha çətin auditlər keçirmək qabiliyyətinin inkişafına kömək edə bilər (Cədvəl 26).

| Cədvəl 26: INTOSAI İnkişaf Təşəbbüsü (IDI) |
|---|
| INTOSAI İnkişaf Təşəbbüsünün (IDI) missiyası inkişaf etməkdə olan ölkələrə audit bacarıqlarını artırmaq, təlim, informasiya mübadiləsi və texniki yardım vasitəsi ilə ortaya çıxan audit problemlərini həll etməkdir.<br>IDI-ın 2001-2006-ci illər üzrə yeni strateji planının hazırlanması prosesinin bir hissəsi olaraq Norveç Baş Auditor Ofisi 1999-cu ilin dekabr ayında INTOSAI-ın 7 regional təşkilatından 6-sında sorğu keçirmişdir. IDI-ın gələcək gündəliyi üçün beş sahənin əhəmiyyətinin qiymətləndirilməsində144 AAQ iştirak etmişdir.<br><br>Faktiki olaraq hər bir region həm qiymətləndirmələrdə, həm də yazılı şərhlərdə ətraf mühit auditinə olan maraqlarını vurğulamışdır. Bir çox AAQ təlim tədbirlərinin hazırlanması ilə nəticələri fəaliyyətə çevirmək üçün IDI-ın Ətraf Mühitin Auditi üzrə İşçi Qrupi ilə əməkdaşlığının artırılmasına dəstək vermişdir. |

4.10 Kanada AAQ-ı son dövrlərdə xüsusilə öz fəaliyyətlərini təkmilləşdirməklə dövlət qurumlarına dəstək olmaq məqsədi ilə auditlərin keçirilməsi üçün iş həcmini artırmışdır. AAQ ətraf mühitin təsirləri barədə hesabatların verilməsi və bunun qərar qəbul etmə prosesinə inteqrasiyası sahəsində potensialın artırılmasına çalışmışdır. Qurumunun "Dayanıqlı inkişaf üzrə cavabdehlik" adlı layihəsi var. Layihənin bir məqsədi də dayanıqlı inkişaf üzrə həyata keçirilən proqramların auditində istifadə ediləcək vahid qərar qəbul etmə modellərinin hazırlanmasıdır. Müstəqilliyin qorunması məqsədi ilə AAQ potensialın artırılması işinə cəlb edilmiş qrup üzvlərinin sonradan şöbələrin Parlamentə hesabat verdiyi nəticələrin auditinə cəlb edilməməsini təmin etməlidir.

## 4-CÜ ADDIM: AUDİTLƏRİN KEÇİRİLMƏSİ

Dayanıqlı inkişaf məsələlərinin auditləri də standart audit mərhələləri var: planlaşdırma, auditin keçirilməsi, hesabatvermə və izləmə (monitorinq)..

4.11 Dayanıqlı inkişaf üzrə auditlərə tətbiq edilən standartlar heç bir auditdən fərqli olmamalıdır. Dayanıqlı inkişaf məsələlərinin auditi standart audit mərhələlərindən – planlaşdırma, auditin aparılnası işi, hesabatvermə və izləmədən keçməlidir. Əsas məqsədlər fərq yaratmaq, hesabatlılığı artırmaq və qabaqcıl təcrübələrdən istifadə etmək olaraq -dəyişməz qalır.

4.12 Auditin uğuru rəhbərliyin bir neçə əsas sualından asılıdır:

- Məsul şəxs varmı?
- Mərhələlər, fəaliyyətin qismətləndirilməsi meyarları, hədəflər və gözlənilən nəticələrə dair kifayət qədər planlaşdırma aparılıbmı?
- Təşkilatın üzərinə düşən vəzifələri yerinə yetirmək üçün kifayət qədər təcrübəsi varmı?
- Müxtəlif təşkilatlar bir yerdə nə dərəcədə əməkdaşlıq edir?
- Hesabatlılıq aydın şəkildə müəyyən edilibmi? Hesabat vaxtında, aydın, uyğun və anlaşılandırmı, nəticələri əks etdirirmi?
- Nəticələrin məqsəd və hədəfləruyğunluğu kifayət qədər qiymətləndirilirmi?
- Düzgün qərarların verilməsində uyğun məlumatlardan istifadə edilirmi?
- Qurumun öz fəaliyyətini qiymətləndirmək üçün kifayət qədər nizamlaması varmı, əgər varsa, nəticə necə olub?

Cədvəl 27: İndoneziya Milli Meşəsinin qorunması

İndoneziya milli meşələrin qorunması üçün bir çox layihə hazırlayıb. Bu layihələrin əsas məqsədləri təbii gözəlliklərin qorunması, yerli bitki və heyvanat aləminin müdafiəsidir. Bunun üçün təbii qoruqlar, vəhşi təbiət qoruqları, milli parklar və qorunan meşələr yaradılıb.

İndoneziya AAQ-ı bu məqsədlərə dəstək olmaq məqsədi ilə hazırlanmış layihələrin aydın hədəflərinin mövcudluğu və bu istiqamətdə müvafiq tədbirlərin müəyyən edildiyi barədə məlumat vermişdir. Planlaşdırmaya kadr və maddi resurslarla bağlı xərclərin müəyyən edilməsi daxildir. Bununla belə, bu hədəflərə çatmaq üçün aşağıdakı maneələrin olması qeyd edilmişdir:

- Milli qanunvericilik çərçivəsində fəaliyyət göstərən dövlət məmurları ilə yerli adət-ənənələrə əsaslanan yerli əhali arasında münaqişə;
- Ağacın kəsilməsinə effektiv nəzarətin olmaması;
- Bitki və heyvanların qanunsuz olaraq başqa ölkələrə ixracı;
- Yerli bitki və heyvanları məhv edən xarici biotexnoloji məhsulların idxalı.

## 5-Cİ ADDIM: AAQ-IN ÖZ VƏ DİGƏRLƏRİNİN TƏCRÜBƏSİNDƏN ÖYRƏNMƏSİ

Digər AAQ-larla təcrübə mübadiləsi fikirlərin mübadiləsinə və son yeniliklər barədə məlumatlı qalmağa kömək edə bilər

4.13 Aydındır ki, dayanıqlı inkişafın auditi kimi daim inkişaf edən bir sahədə təkmilləşməyə hər zaman ehtiyac vardır. Digər AAQ-larla təcrübə mübadiləsi fikirlərin mübadiləsinə və son yeniliklər barədə məlumatlı qalmağa yardımçı olkömək edə bilər. INTOSAI üzvləri dünyanın bir çox yerində öyrənmə prosesinə kömək etmək üçün ətraf mühitin auditinə dair regional qruplar yaratmışlar. Bu qruplar dayanıqlı inkişaf problemlərini də nəzərdən keçirə bilərlər. Mümkün olduğu təqdirdə və güman ki regional əsasda ümumi təlim proqramlarının keçirilməsinə təşəbbüs göstərmək olar. Bu xüsusi təcrübənin müəyyən edilməsi və paylaşılmasına kömək olmaq üçün verilənlər bazası hazırlana bilər. İşçi Qrupunun veb-saytından (www.environmental-auditing.org) istifadə AAQ-lara məlumat mübadiləsində kömək edə bilər.

Cədvəl 28: Ətraf mühitin auditi üzrə regional işçi qruplar

Digər AAQ-ların təcrübəsindən faydalanmağın bir yolu ətraf mühitin auditinə dair regional işçi qruplardır. INTOSAI-da, yüksək audit qurumlarının (AAQ) yeddi regional təşkilatı var: Afrika (AFROSAI), Ərəb ölkələri (ARABOSAI), Asiya (ASOSAI), Karib dənizi (CAROSAI), Avropa (EUROSAI), Latın Amerikası və Karib dənizi (OLACEFS), və Cənubi Sakit Okean (PASAI).

INTOSAI Ətraf Mühit Auditi üzrə İşçi Qrupu ali audit qurumlarının regional təşkilatları ilə əməkdaşlıq üçün strategiya hazırlamışdır. INTOSAI-ın yeddi regional bölgəsindən altısında ətraf mühitin auditi üzrə işçi qrup yaradılmışdır. Regional işçi qruplarının məqsədi, AAQ-ları ətraf mühit üzrə beynəlxalq auditlərə cəlb etmək və bu sahədə təcrübə mübadiləsi aparmaqdır. Hər region bir ölkəni koordinator təyin etmişdir: Məsələn, Polşa EUOROSAI üzrə regional koordinatordur və aşağıdakı məqsədləri var:

- Digər Avropa AAQ-larının İşçi Qrupunun fəaliyyətinə cəlb edilməsi ilə bağlı təşəbbüslərin irəli sürülməsi,Mərkəzi və Şərqi Avropa ölkələrindən olan üzvlərin artması;
- ətraf mühit auditinə dair sənədlərin, təlimatların, standartların, metodlar və üsulların yayılması;

- məlumatların, ətraf mühit auditlərinin və onlardan əldə edilən təcrübələrin mübadiləsi;
- Avropanın müxtəlif bölgələrində beynəlxalq auditlərin keçirilməsi;
- məlumat yaymaqla İşçi Qrupunun fəaliyyəti barədə məlumatlılığı artırmaq;
- INTOSAI-ın Ətraf Mühitin Auditi üzrə İş Qrupunun Sədri və alt koordinatorları ilə davamlı əməkdaşlıq.

Regional işçi qruplar haqqında daha ətraflı məlumat üçün www.environmental-auditing.org saytına daxil ola bilərsiniz.

## 6-CI ADDIM: TƏSİR ETMƏK

Səmərəlilik auditinin digər formalarında olduğu kimi AAQ tövsiyələrin izlənməsinə və audit təsirlərinin qeydə alınmasına nəzarət etməlidir.

4.14 Burada əsas sual budur: "Biz fərq yaradırıqmı və bəlkə də daha vacib olanı isə istədiyimiz fərqi yaradırıqmı?" Səmərəlilik auditinin digər formalarında olduğu kimi AAQ-ın tövsiyələrinin izlənməsi və audit təsirlərinin qeydə alınmasına dair sistemi olmalıdır.

4.15 Kompleks və ya səmərəlilik auditi yalnız audit nəticələri ictimaiyyətə açıqlanarsa effektiv ola bilər. Effektiv kommunikasiya və hesabat strategiyasının olması müvəffəqiyyət üçün zəruridir. AAQ media, qanunvericilik komitələri, hökumət idarəsi və ictimaiyyətlə daha geniş əlaqələrini nəzərə almalıdır. Həmişə olduğu kimi hesabat formasının verilən məlumatın alınmasına kömək olmasına və ya onu gizlətməsinə xüsusi diqqət yetirilməlidir.

4.16 Əlavə A-da bir hökumətin (Kanada) AAQ-a dair hazırlanmış qanunla hökumətdə ətraf mühit hesabatlılığının necə təşviq edilməsinin nümunəsi göstərilir. Bu bölmə həm Kanada AAQ-ının, həm də federal şöbələrin qanunla müəyyən edilmiş öhdəliyini göstərir.

## NƏTİCƏ

4.17 Dayanıqlı inkişaf AAQ-ların ideyaları və metodlarında yeni çətinliklər yaradır. Bu hissədə prosesi bir sıra idarəedilə bilən mərhələlərə bölmək və bu çətinliklərin öhdəsindən inamla gəlmək üçün məsələn, Ətraf Mühitin Auditi üzrə İşçi Qrupun veb-saytı (www.environmental-auditing.org) vasitəsi ilə digər AAQ-ların təcrübələrindən faydalanmağın mümkünlüyü göstərilmişdir.

## ƏLAVƏ A: BAŞ AUDİTORUN AKTINDAN ÇIXARIŞ (KANADA)

**Pul üçün dəyər (Səmərəlilik Auditi)**

7. (2) Baş Auditorun hər bir hesabatının birinci altbölməsində əhəmiyyətli hesab etdiyi məsələyə fikri yönəltməli, İcmalar Palatasının (House of Commons) nəzərinə çatdırılması lazım olan qismlərə və aşağıda qeyd olunan digər hallara dair müşahidələrinə diqqət çəkməlidir.

c) Parlament tərəfindən müəyyən olunan məqsədlərdən kənar pulun xərclənməsi;

e) düzgün və əsaslı şəkildə həyata keçirilə bilməsinin mümkün olduğu halda proqramların səmərəliliyini ölçmək və hesabat vermək üçün qənaətbəxş prosedurların qurulmaması;

f) pulun dayanıqlı inkişaf anlayışını, xərclərin ətraf mühitə təsirlərini nəzərə alınmadan xərclənməsi.

15.1 (1) Baş Auditor Dövlət Xidmətlərində Məşğulluq Qanununa uyğun olaraq birbaşa Baş Auditora hesabat verən, Ətraf Mühit və Dayanıqlı İnkişaf üzrə Müvəkkil adlandırılan yüksək rütbəli şəxsi vəzifəyə təyin edir.

(2) Müvəkkil Baş Auditorun ətraf mühitə və dayanıqlı inkişafa aid bu Qanunda təsbit edilmiş vəzifələrini yerinə yetirməsində kömək etməlidir.

## DAYANIQLI İNKİŞAF

21.1 Müvəkkilin məqsədi dayanıqlı inkişafın monitorinqi və birinci kateqoriya bölmələrin sosial, iqtisadi və ətraf mühit problemlərinin qarşılıqlı, davamlı inkişaf etdirilməsini əhatə edən dayanıqlı inkişaf anlayışına dair hesabatların hazırlanmasını təmin etməkdir. Bununla yanaşı, aşağıda qeyd olunan digər məsələlərə də nail oluna bilər:

a) ətraf mühit və iqtisadiyyatın inteqrasiyası;

b) Kanadalıların sağlamlığının qorunması;

c) ekosistemlərin qorunması;

d) beynəlxalq öhdəliklərin yerinə yetirilməsi;

e) kapitalın təşviqi;

f) ətraf mühit və təbii resursların xərclərininə dair müxtəlif iqtisadi seçimlərin və müxtəlif ətraf mühit və təbii resurs seçimlərinin iqtisadi xərclərini nəzərə alan planlaşdırma və qərarlara vahid bir yanaşmanın olması;

g) çirklənmənin qarşısının alınması;

h) təbiətə və gələcək nəsillərin ehtiyaclarına hörmətlə yanaşmaq.

23. (1) Müvəkkil nəzarət məqsədilə zəruri hesab etdiyi yoxlama və sorğular aparacaq. Belə ki:

a) Birinci kateqoriya bölmələrin məqsədlərə nə dərəcədə nail olduğu, 24-cü bölmədə, dayanıqlı inkişaf strategiyalarında İcmalar Palatasına (Kanada Parlamenti) təqdim olunmuş planları həyata keçirdiyini;

b) 22 (3) bəndin tələb etdiyi Nazirliklərin cavabları.

(2) Müvəkkil Baş Auditor adından Parlamentin diqqətinə çatdırılmasını zəruri hesab etdiyi, dayanıqlı inkişafın ətraf mühit və digər tərəfləri və aşağıda qeyd olunan məsələ barədə İcmalar Palatasına (Kanada Parlamenti) hər il hesabat verəcəkdir.

a) Birinci kateqoriya bölmələrin məqsədlərə nə dərəcədə nail olduğu, 24-cü bölmədə, dayanıqlı inkişaf strategiyalarında İcmalar Palatasına (Kanada Parlamenti) təqdim olunmuş planları həyata keçirdiyini;

(3) (2) yarımbənddə tələb olunan hesabat İcmalar Palatasının Spikerinə təqdim edilməli və Spiker onu qəbul etdikdən sonra on beş gün ərzində növbəti iclasda Palatanın müzakirəsinə təqdim olunmalıdır.

24. (1) Birinci kateqoriya bölmələrin hər biri üzrə müvafiq Nazir bölmədə dayanıqlı inkişaf strategiyasnın hazırlanmasına və bu strategiyanın İcmalar Palatasına təqdim olunmasına məsuldur.

a) bu altbəndin qüvvəyə minməsindən sonra iki il ərzində (bu Dekabr 1997-ci ili nəzərdə tutur).

Qeyd: 7.(2)(f), 15.1, 21.1, 23.(1) və 24.(1)-ci bəndləri Ümumi Auditor Qanununa edilən dəyişikliklərin nəticələri idi. Bu düzəlişlər 1995-ci ilin dekabrında qüvvəyə minib.

# TERMİNLƏR LÜĞƏTİ

**XXI əsr Gündəliyi**- 1992-ci ildə Rioda keçirilən “Yer kürəsi” Zirvə Görüşündə " XXI əsr Gündəliyi" adlı fəaliyyət planı 178 hökumət tərəfindən qəbul edildi. Belə ki, "Ətraf mühit və inkişaf problemlərini həll etmək üçün dövlətlər yeni qlobal tərəfdaşlıq qurmağa qərar verdilər Bu tərəfdaşlıqla bütün dövlətlər dayanıqlı inkişafın beynəlxalq ictimaiyyətin gündəminin prioritet məsələ olmasını öhdələrinə götürürlər." XXI əsr Gündəliyi dayanıqlı inkişaf sahəsinin bir çox tərəflərini əhatə edir.

**Həddindən Artıq Xərc Tələb Etməyən Mövcud Ən Yaxşı Texnika** (BATNEEC) - bu termin çirkləndirici maddələrin emissiyasını həddindən artıq xərc tələb etməyən mühitlə (hava, su, torpaq) məhdudlaşdırmağa imkan verən fiziki prosesi və ya texnikanı (adətən sənaye ilə bağlı) müəyyən edir. Bu texnikanın istifadəsinə dair qaydalar hazırlana bilər və məsul şəxslər, məsələn sənayedə çirklənmənin tənzimlənməsinə dair iqtisadi və ekoloji xərclər ilə bağlı qərarları istiqamətləndirmək üçün istifadə edilə bilər.

**Ətraf Mühitə dair Ən Praktik Seçim**- birdən çox mühitə (hava, su, torpaq) çirkləndiricilərin buraxılması və hər biri üçün BATNEEC-lər nəzərə alınaraq mümkün olan bir sıra fəaliyyətdən ən az zərər verən və ya ətraf mühitə dair ən faydalı seçimin müəyyən edildiyi bir prosesdir.

**Bioloji Müxtəliflik haqqında Konvensiya**- 1992-ci il “Yer kürəsi” Zirvə Görüşündə imzalanmış və 174 ölkə tərəfindən ratifikasiya edildikdən sonra bu konvensiya ölkələrin yaşayış mühitinin mühafizəsi və digər vasitələrlə bitki, heyvan növlərini qorumağı öhdəsinə qoyur. Nəsli kəsilməkdə olan növlərin qorunması CITES- 1973-cü ildə Nəsli Kəsilməkdə Olan Növlərin Beynəlxalq Ticarəti Konvensiyası ilə də həyata keçirilir.

**“Yer kürəsi” Zirvə Görüşü**- 1992-ci ildə Rio-de-Janeyroda BMT-nin Ətraf Mühit və İnkişaf Konfransı keçirildi. Bu konfrans qlobal problemlərin həlli üçün qlobal cəhd üçün böyük bir mərhələ idi: 105 ölkə Rio Bəyannaməsini təsdiqlədi.

**Ətraf mühitə dair hesabatlılıq**- daxili və ya xarici istifadəçilərə məlumat vermək üçün ətraf mühitə dair daxili, xarici və ya hər ikisinin xərclərinin müəyyən edilməsi, ölçülməsi və müvafiq hesablarda yerləşdirilməsi. (Mənbə: Ətraf Mühitin Xərcinə Dair Hesabatlılıq, Kanada Mühasiblər İnstitutu, 1992)

**Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi -** siyasət, plan və ya fəaliyyətin nəticələrinin ətraf mühitə təsirini qiymətləndirmək üçün yanaşmadır.

**Ətraf mühitin idarə edilməsi sistemi -** ətraf mühit siyasətini inkişaf etdirmək, həyata keçirmək, əldə etmək, nəzarət etmək və qoruyub saxlamaq üçün təşkilati strukturu, planlaşdırma fəaliyyətləri, məsuliyyətləri, təcrübələri, prosedurları, prosesləri və resursları özündə birləşdirən ümumi idarəetmə sisteminin bir hissəsidir. (Mənbə: Beynəlxalq Standartlar Təşkilatı)

**Ətraf mühitə dair məqsəd**- ətraf mühit siyasətindən irəli gələn, mümkün olduğu təqdirdə hesablana bilən, təşkilatın nail olmağı qarşısına qoyduğu ümumi ətraf mühitə dair məqsəd (Mənbə: ISO 14031)

**Ətraf mühitə dair fəaliyyət göstəricisi**- təşkilatın ətraf mühitə dair faəliyyəti haqqında məlumat verən bir ölçüdür. (Mənbə: ISO 14031)

**Ətraf mühitə dair hədəf-** ətraf mühitin məqsədlərindən irəli gələn, ümumilikdə təşkilatın və ya onun müəyyən hissələri üçün tətbiq edilə bilən, mümkün olduğu təqdirdə kəmiyyətcə ölçülən fəaliyyətə dair ətraflı tələb. (Mənbə: ISO 14031)

**Avropa Birliyi Eko-İdarəetmə və Audit Sxemi (EMAS)**- Avropa Komissiyası tərəfindən ətraf mühitin idarə edilməsi üçün standartların tam dəsti hazırlanmışdır: ətraf mühitin idarə edilməsi sistemləri, audit, performans qiymətləndirmə, etiketləmə, həyat dövrü qiymətləndirmə və məhsul standartları. EMAS alternativ olaraq və ya ISO 14000-ə əlavə olaraq tətbiq oluna bilər.

**Ekoloji təsərrüfat (Green housekeeping**)- bəzi milli və regional hökumətlər həm milli strategiyaya töhfə vermək, həm də müəssisələrə və fərdlərə hökumətin nümunəsini izləmək üçün stimul vermək üçün fəaliyyətlərini "yaşıllaşdırmaq" üçün şüurlu şəkildə cəhd göstərdilər. Təşəbbüslər hökumət binalarının dizaynı da daxil olmaqla enerjiyə qənaət və tullantıların azaldılması kimi məsələlərə yönəlib.

**Hökumətin yaşıllaşdırılması (Greening of government)**- ekoloji problemlərin daha geniş siyasi mülahizələr daxilində birləşdirilməsini təmin etmək üçün təşəbbüslər hazırlanmışdır. Dövlət orqanlarından yol tikintisi layihələrinin ekoloji qiymətləndirilməsini tələb edilməsi bu yanaşmanın nümunəsidir.

**ISO 14000**- Beynəlxalq Standartlar Təşkilatı tərəfindən hazırlanmış ətraf mühitin idarə edilməsi sistemləri, audit, performans qiymətləndirilməsi, etiketləmə, həyat dövrü qiymətləndirilməsi və məhsul standartlarını əhatə edən ətraf mühitin idarə edilməsi üçün hərtərəfli standartlar toplusudur.

**Kyoto Protokolu**- öz imzaları ilə 166 ölkə istixana qazı emissiyalarını ehtiva edən milli proqramları hazırlamağı öhdələrinə götürdü.

**Həyat dövrü xərcləri**- bir məhsulun satın alınması, təmir və silinməsi ilə əlaqədar bütün xərcləri əhatə edir. Bəzi əməliyyatlar üçün, məsələn əhəmiyyətli çirklənməyə səbəb olan sənaye prosesləri, təmizləmə xərcləri fəaliyyətə davam etmək qərarına əhəmiyyətli təsir göstərə bilər.

**Yerli hökumətlər üzrə XXI Əsr Gündəliyi**- Gündəlik 21-in 28-ci fəsli problemlərin və həll yollarının bir çoxunun köklərinin yerli fəaliyyətlərdən qaynaqlandığını qəbul etdi. 1996-cı ilə qədər əksər yerli hakimiyyət orqanlarının milli dayanıqlı inkişaf strategiyalarını dəstəkləmək üçün "Yerli hökumətlər üzrə XXI Əsr Gündəliyi" mövzusunda həmrəylik əldə etmək üçün bir fikir mübadiləsi aparmalı olduqlarını təyin etdi.

**Birdən çox hesabın təhlili**- sosial, iqtisadi və ətraf mühitə dair mülahizələri planlaşdırmaya daxil etmək üçün bir üsuldur. Bu metod bir problemin iqtisadi, sosial və ətraf mühitə dair xərc və faydalarının tək pul dəyərini təhlil etmək əvəzinə problemin fərqli aspektlərini ayrıca və paralel olaraq nəzərdən keçirməyi əhatə edir. (Mənbə: Ətraf Mühit və Dayanıqlı İnkişaf Komissarı- Kanada)

**Təbii resursların uçotunun aparılması**- təbii ehtiyatlarla bağlı açılış, son hesab qalıqlarının, hesabda artım, azalış kimi əməliyyatların mühasibat uçotu çərçivəsində maliyyə vəziyyəti haqqında hesabatlarında tərtib olunmasıdır.

**Fəaliyyət (performans) ölçüləri və göstəriciləri**- hökumətlərin dayanıqlı inkişaf hədəflərinə nail olmada irəliləyişi qiymətləndirə biləcəyi ədalətli və ölçülə bilən dəyərlərdir. Bəzi yerlərdə "ölçülər" araşdırılan mözunun birbaşa ölçüləridir, "göstəricilər" isə dolayılıdır. Bu sənəddə hər ikisini ifadə etmək üçün "göstəricilər" sözündən istifadə edirik.

**Rio Ətraf Mühit və İnkişaf Bəyannaməsi**- müqaviləni imzalayan 105 dövlətin dayanıqlı inkişafa nail olması üçün ilkin şərt kimi razılaşdırılmış 27 prinsipdən ibarətdir.

**Sosial Xərclərin Faydalılıq Təhlili**- təklif olunan layihənin pulla ifadə olunan xərcləri və faydalarını müqayisə etmək üçün standart bir yoldur. Xalis xərclər və faydalar əsas götürülmüş ilə uyğun dəyərdə hesablanır və çox vaxt xalis cari dəyər və ya xərc fayda nisbəti kimi ifadə edilir.

**Strateji ətraf mühitin qiymətləndirilməsi**- siyasət, plan və ya proqram təkliflərinin iqtisadi və sosial mülahizələrlə bərabər qərar qəbul edərkən erkən və uyğun mərhələdə nəzərə alaraq ətraf mühitə təsirlərini qiymətləndirmək üçün sistemli, proaktiv bir prosesdir. (Mənbə: Ətraf Mühitin Qiymətləndirilməsinin Effektivliyi üzrə Beynəlxalq Araşdırma, 1995)

**Dayanıqlı inkişaf**- gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən bu günün ehtiyaclarını ödəyən inkişaf. (Mənbə: Baş Auditor Qanunu (Kanada)/Brundtland Hesabatı)

**Dayanıqlı Norma Dəyərləri (göstəriciləri)**- əgər pozulsa müvafiq sahədə inkişafın dayanıqsız olduğunu göstərən, elmi cəhətdən müəyyən edilmiş və ümumilikdə qəbul edilmiş limitdir. Məsələn, balıq ehtiyatlarının bərpa oluna bilməyəcəyi balıq ovu səviyyəsinə dair limit.

**BMT-nin İqlim Dəyişikliyi Çərçivəsi üzrə Konvensiyası**- istixana qazı emissiyalarını məhdudlaşdırmaq üçün milli proqramlar hazırlamağı öhdələrinə götürdükləri Kyoto Protokolunu 166 dövlət tərəfindən imzalanmasına səbəb oldu.